# General vəzifəsindən azad edildi

## Baş prokuror Kamran Əliyev əmr imzalayıb



**Respublika Hərbi prokurorunun müavini, ədliyyə general-mayoru Rasim Kazımov işdən azad edilib.**

Bununla bağlı Baş prokuror Kamran Əliyev əmr imzalayıb.

Əmrə əsasən, Rasim Kazımov prokurorluqda qulluqda olmanın yaş həddinə çatdığına görə tutduğu vəzifədən azad olunaraq prokurorluq orqanlarında qulluq keçməsinə xitam verilib.

Məlumatı Baş Prokurorluğun Mətbuat xidmətindən Trend-ə təsdiqləyiblər.

# Ərdoğan Consonla Ukraynadakı vəziyyəti müzakirə edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Böyük Britaniyanın Baş naziri Boris Conson ilə telefon danışığı aparıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə Türkiyə Prezidenti Administrasiyası məlumat yayıb. Görüşdə regionda baş verən hadisələr, xüsusilə Rusiyanın Ukraynaya hücumu və Türkiyə ilə Böyük Britaniya arasındakı münasibətlər müzakirə edilib.


❒ № 42 (5564), 2022-ci il

Qiymıəti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 5 mart 2022-ci il (şənbə)




# Ukraynadan təxliyə olunublar

## Daha 191 həmyerlimiz Rumıniyadan Vətənə qayıdıb

**AZAL-ın növbəti təxliyə reysi ilə Rumıniyanın Yassı beynəlxalq hava limanından 13-ü uşaq olmaqla 191 Azərbaycan vətəndaşı Bakıya çatdırılıb.**

Daha əvvəl AZAL-ın təxliyə reysləri ilə Ukraynada baş verən hadisələrlə əlaqədar ölkəyə qayıtmaq istəyən yüzlərlə həmyerlimiz Azərbaycana qayıdıb.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, AZAL hər gün həmvətənlərin daşınması üçün təxliyə uçuşları həyata keçirir. Azərbaycan vətəndaşları üçün təxliyə reysləri ödənişsiz həyata keçirilir.

Ukraynanı tərk etmiş ölkəmizin vətəndaşları Vətənə qayıtmaq üçün Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri ilə əlaqə saxlaya bilərlər.



# Mövlud Çavuşoğlu Azərbaycana səfərə gəlib

**Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Azərbaycana səfərə gəlib.**

Bu barədə Türkiyə XİN başçısı öz rəsmi "Twitter" səhifəsində bildirib.

"NATO Xarici İşlər Nazirlərinin Brüsseldə Ukrayna üzrə fövqəladə iclasından sonra əlaqələrimizi və regional hadisələri müzakirə etmək üçün Azərbaycandayıq", - M.Çavuşoğlu qeyd edib.

# "Qida təhlükəsizliyi" haqqında qanun layihəsi birinci oxunuşdan keçib



**Milli Məclisin bu gün keçirilən iclasında "Qida təhlükəsizliyi" haqqında qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb.**

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 20-ci və 26-cı bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazisində insanların və heyvanların həyat və sağlamlığının, habelə istehlakçıların hüquqlarının müdafiəsi üçün qida və yem məhsullarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı münasibətləri tənzimləyir.

Qanun layihəsi müzakirələrdən sonra səsvermməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

# "Ukrayna məğlub olsa, Avropa da süqut edəcək"

## Zelenski Avropanın 7 ölkəsinə səsləndi




**"Ukrayna süqut etsə, Avropa süqut edəcək". Bunu Ukrayna Prezidenti Volodimir Zelenski Tbilisi də daxil olmaqla Avropanın 7 şəhərinə müraciətində deyib.**

Dövlət başçısının müraciəti Gürcüstan parlamentinin binası qarşısında quraşdırılmış monitorlarda telekörpü vasitəsilə yayımlanıb. Müraciəti qanunverici orqanın binası qarşısında keçirilən Ukraynaya kütləvi dəstək aksiyasının iştirakçıları alqışlarla qarşılayıblar.

V.Zelenski üç dəqiqəlik çıxışının ilk dəqiqəsini Ukraynanın müdafiəsi uğrunda həlak olanların, ikinci dəqiqəsini isə ölən mülki şəxslərin xatirəsinin sükutla yad edilməsinə həsr edib.

(səh.2)

# Məktəbləri yenə 8 Mart həyəcanı basıb

## Hər kəs bildiyini edir, əsas fiqur da valideynlərdir



**İllərdir, hər dəfə bayram ərəfəsində nazirlik müraciət edir, xəbərdarlıq edir, tövsiyə edir Etmədiyi nəsə qalmır, amma nə fayda?! Məktəblər öz bildiyini edir. Əsas fiqur da valideynlərdir.**

Hansı müəllim üçün nə qədər pul toplanmalıdır, pulun nə qədəri direktora, nə qədəri tədris hissə müdirinə, sinif müəlliminə, nə qədəri də sıravi - "fağır" müəllimə çatanacan, hesab-bölgü aparılır. Belə çıxır ki, pul toplama kampaniyasının qarşısını almaq mümkün deyil? Əsas günahı valideynlərdə görənlər az deyil. Pul verən valideyndirsə, demək, əsas günahkar da odur. Valideynlərin arqumenti də var...

(səh.5)



# Putin: "Ukrayna ilə danışıqların üçüncü raundu bu həftəsonu keçiriləcək"

**Rusiya və Ukrayna arasında danışıqların üçüncü raundu bu həftənin sonunda keçiriləcək.**

APA-nın CNN-ə istinadən xəbərinə görə, bu barədə Rusiya Prezidenti Vladimir Putin Almaniya Kansleri Olaf Şoltsla telefon danışığı zamanı bildirib.

*Qeyd edək ki, Rusiya-Ukrayna danışıqlarının 2-ci raundu ötən gün Belarusun Brest vilayətində baş tutub. Ukrayna hökumətinin rəsmisi Mixaylo Podolyak görüşdən sonra bildirib ki, tərəflər arasında danışıqlar zamanı Ukraynanın istədiyi nəticə əldə edilməyib. 2-ci raundun əsas nailiyyətinin mülki şəxslər üçün humanitar dəhlizlə bağlı razılıq əldə edilməsi hesab edilir.*

# Azərbaycanda yoluxanlar azalır

## 588 nəfər COVID-19-a yoluxub, 15 nəfər vəfat edib




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 588 yeni yoluxma faktı qeydə alınıb, 1185 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 15 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 788 525 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 772 715 nəfər müalicə olunaraq sağalıb, 9 488 nəfər vəfat edib, aktiv xəstə sayı 6322 nəfərdir.

Ölkədə son sutka ərzində 6829, hazırkı dövrədək isə 6 585 992 test aparılıb.

# Rusiyada "Facebook" və "Twitter"ə giriş bloklanıb

**"Roskomnadzor" Rusiya media hesablarının bloklanmasına cavab olaraq "Facebook" sosial şəbəkəsini bloklamaq qərarına gəlib.**

Bu barədə qurumun internet saytında məlumat yerləşdirilib.

Vurğulanır ki, "Roskomnadzor" 2022-ci il martın 4-də Rusiya Federasiyasında "Facebook" şəbəkəsinə (Meta Platforms, Inc.-ə məxsus) girişi bloklamaq qərarına gəlib.

Roskomnadzor bildirir ki, 2020-ci ilin oktyabr ayından bəri "Facebook" tərəfindən Rusiya mediasına və informasiya resurslarına qarşı 26 diskriminasiya faktı qeydə alınıb.

Dünən Rusiyada eyni zamanda "Twitter"ə giriş də bloklanıb.

Bu barədə Rusiya Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi İnformasiya Vasitələrinə Nəzarət Federal Xidməti ("Roskomnadzor") yayıb.



# "Putinin Ukraynaya savaşı ən çox ABŞ-ın işinə yaradı"

Toğrul İsmayıl: "Qərbin dəstəyinin əhəmiyyətli olmayacağı, sanksiyalardan və humanitar yardımdan o tərəfə keçməyəcəyi bəlli idi"

(səh.3)

# Vəziyyət Ukrayna üçün ürəkaçan deyil

Razılaşma müharibənin daha şiddətli mərhələyə keçməsi deməkdir

(səh.3)





# Prezident əmək pensiyası ilə bağlı sərəncam imzalayıb

**Prezident İlham Əliyev "Əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalayıb.**

Sərəncam "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 3135 nömrəli Sərəncamının icrasını təmin etmək və əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsini gücləndirmək məqsədilə qərara alınıb.

Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə aylıq əmək pensiyası məbləğinin (qulluq stajına görə əlavələr nəzərə alınmaqla) 10 faizi məbləğində aylıq maddi yardımın hər ay onların pensiyasının məbləği ilə birlikdə ödənilməsini təmin edəcək.

Həmçinin nazirlik bu sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görəcək.

Nazirlər Kabineti isə bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maddi yardımın 2023-cü il yanvarın 1-dən etibarən onun şamil edildiyi əmək pensiyaçılarının pensiyalarının tərkibinə daxil edilməsinə dair təkliflərini bir ay müddətində Azərbaycan Prezidentinə təqdim etməlidir.

Həmçinin Nazirlər Kabineti bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maddi yardımın dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün zəruri tədbirlər görməli və irəli gələn digər məsələləri həll etməlidir.

*Bu Sərəncamın 1-ci hissəsi 2022-ci il yanvarın 1-dən tətbiq edilir.*

# "Ukrayna məğlub olsa, Avropa da süqut edəcək"

## Zelenski Avropanın 7 ölkəsinə səsləndi

**"Ukrayna süqut etsə, Avropa süqut edəcək".**

**Bunu Ukrayna Prezidenti Volodimir Zelenski Tbilisi də daxil olmaqla Avropanın 7 şəhərinə müraciətində deyib.**



"Gözlərinizi yummayın, gəlin və mübarizəmizə bacardığınız qədər dəstək olun"

Dövlət başçısının müraciəti Gürcüstan parlamentinin binası qarşısında quraşdırılmış monitorlarda telekörpü vasitəsilə yayımlanıb. Müraciəti qanunverici orqanın binası qarşısında keçirilən Ukraynaya kütləvi dəstək aksiyasının iştirakçıları alqışlarla qarşılayıblar.

V.Zelenski üç dəqiqəlik çıxışının ilk dəqiqəsini Ukraynanın müdafiəsi uğrunda həlak olanların, ikinci dəqiqəsini isə ölən mülki şəxslərin xatirəsinin sükutla yad edilməsinə həsr edib. (report)

Prezident Avropanı səssiz qalmamağa, Ukraynaya dəstəyə çağırıb: "Gözlərinizi yummayın, gəlin və mübarizəmizə bacardığınız qədər dəstək olun. Əminəm ki, Ukrayna qələbə qazanacaq. Bu qələbə bütün demokratik dünyanın, bizim azadlığımızın, işığın zülmət üzərində zəfəri olacaq. Vilnüs, Frankfurt, Tbilisi, Bratislava, Praqa, Leon, Paris, bu gün siz hamınız ukraynalısınız!".

*Qeyd edək ki, telekörpünün Gürcüstandakı tərəfdaşı kimi müxalif "Formula" telekanalı çıxış edib.*



# "Müdafiə Nazirliyində oturan divləri tutmaq lazımdır"

## Fazil Mustafa deyib ki, oğrulardan müsadirə olunan vəsaitləri hərbçilərə verməliyik

**Parlamentin dünənki iclasında millət vəkili Fazil Mustafa deyib ki, bölgəmizdə baş verən müharibə təhlükəsi hamımızı narahat edir:**

"Qarabağda müəyyən işlər hələ də qalır. Bölgəni müəyyən ünsürlərdən təmizləmək üçün biz Müdafiə Nazirliyini təmizləməliyik. Nazirlikdə aparılan son işlər məni sevindirir. Nazirliyin bütün strukturlarında olan köstəbəkləri aradan qaldırmalıyıq. Tərtər hadisələrində, savaşda da bunu gördük. Əsas orda oturan divləri tutmaq lazımdır. Hansısa kiçik məmurun əli ilə bu oğurluq baş verə bilməz. Biz müsadirə olunan vəsaitləri müavinət olaraq hərbçilərə verməliyik. Azərbaycan hərbçisinin həyat şəraitini yaxşılaşdırmalıyıq. Sonradan haqqı pozulmuş hərbiçinin, zabitin haqqını bərpa etmək olmur. Onların çoxu xəstəlik tapır. Hərbi prokurorluq tərəfindən bəzi zabitlər süni ittihamlarla məsuliyyətə cəlb olunurdu. Hamılıqla ordunu qorumaq üçün ölkə Prezidentinin bu istiqamətdə apardığı işi dəstəkləməliyik".

**İsmayıl**

# ABŞ Ukraynaya 240 milyonluq silah çatdırdı




**ABŞ-ın Ukraynaya göndərəcəyi 350 milyon dollarlıq silah yardımının 240 milyon dollarlıq hissəsi bu ölkəyə çatdırılıb.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə Pentaqon məlumat yayıb.

Bildirilib ki, daha 14 ölkə Ukryanaya silah yardımı edib.

*Qeyd olunub ki, ABŞ mənşəli silahlar rus ordusunu yavaşladacaq.*

# Zelenski qətiyyən məğlubiyyət dilində danışmır

## Bu hazırlıq Qərbin beyin mərkəzlərindən, ordakı texnoloqlardan və xüsusi nitq, bədən dili üzrə mütəxəssislərdən gəlir

**"Əksəriyyət Zelenskinin son açıqlamalarını "çarəsizlik", "məğlubiyyət" və s. kimi izah etməyə başlayıblar.**

Əvvəla, Zelenski kimi siyasi keçmişi olmayan bir şəxsin nitqinə baxmaq və müharibə dövründə böhran kommunikasiyasının idarə edilməsinə diqqət etmək kifayətdir ki, görərik qrossmeyster dəqiqliyi ilə mərhələni necə uğurla idarə etməkdədir".



**"Şərq" xəbər verir ki, bunu beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib. Ekspert qeyd edib ki, bu, "baqaj" hardan gəlir sizcə, sözlərin ölçülü-biçili, təsiredici, yeri gəldikdə, Rusiyanın mövqelərini darmadağın etməkdə və Rusiyadan dəfələrlə böyük dünyada informasiya savaşını udmaqdakı xüsusi hazırlıq, NLP imkanları?**

Qərbin beyin mərkəzlərindən, ordakı texnoloqlardan və xüsusi nitq, bədən dili üzrə mütəxəssislərdən:

"Bəs, dünənki ifadələrin "Putini şəxsən söhbətə çağırması"nın səbəbi nə idi?

Məğlubiyyət? Əsla! Siyasi və hüquqi məsuliyyətlə yanaşı, ictimai və mənəvi məsuliyyəti də, "danışıqlardan qaçan tərəf" obrazını da ona yükləmək məqsədi daşıyırdı, halbuki, ən yaxşı elə Volodimir bilirdi ki, Vladimir heç bir halda güzəştə getməyəcək və batan gəminin kapitanı kimi sona qədər getməyə qərarlıdır".

**Günəş Mərd**

# Ukraynada döyüşlərdə Rusiyanın ən azı üç yüksək rütbəli komandiri öldürülüb



**Ukraynada döyüşlər zamanı Rusiyanın ən azı üç yüksək rütbəli komandiri öldürülüb.**

APA bildirir ki, Qərb rəsmiləri Rusiyanın 41-ci ümumqoşun ordusunun komandirinin müavininin snayper atəşi ilə qətlə yetirildiyini, daha bir diviziya komandiri və bir alay komandirinin də döyüşlərdə həlak olduğunu bildiriblər.

*Qeyd olunub ki, öldürülən komandirlər hərbi əməliyyatlara daha çox nəzarət etmək, bəzi hallarda isə dayanmış əməliyyatları hərəkətə gətirmək məqsədi ilə döyüşlərin baş verdiyi ərazinin yaxınlığına gedibלər.*

*Bildirilib ki, öldürülən komandirlər döyüş meydanında şəxsən iştirak etməyə çalışıblar.*

# NATO Ukrayna səmasını bağlamayacaq



**NATO müttəfiqləri hər zaman Ukraynanı dəstəkləyiblər və çətin zamanda müttəfiqlər bu dəstəyi daha da gücləndiriblər.**

APA-nın xəbərinə görə, bu barədə NATO Baş katibi Yens Stoltenberq bildirib.

Baş katibin sözlərinə görə, Ukrayna səmasının bağlanması məsələsi NATO XİN rəhbərlərinin iclasında müzakirə olunub: "NATO müttəfiqləri razılaşırlar ki, Ukraynanın hava sərhədləri daxilində fəaliyyət göstərən NATO təyyarələri və Ukrayna ərazisində NATO qoşunları olmamalıdır".



# Türkiyə hazırdır

## Çavuşoğlu: "Rusiya və Ukrayna XİN başçılarını görüşünün təşkil edə bilərik"

**Rəsmi Ankara müharibənin dərhal və tam dayandırılması üçün lazım olan hər şeyi etməyə hazırdır. Türkiyə Antalyada Rusiya və Ukrayna XİN başçılarını görüşünün təşkilinə hazırdır.**

"Report" "Anadolu" agentliyinə istinadən xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Brüsseldə NATO-ya üzv ölkələrin xarici işlər nazirlərinin görüşündən sonra keçirilən mətbuat konfransında deyib. Türkiyə Xarici İşlər Nazirliyinin rəhbəri bildirib ki, o, NATO-dakı həmkarlarını Ankaranın regionda apardığı balanslı və qətiyyətli siyasəti barədə məlumatlandırıb.

"Humanitar dəhlizlərin formalaşdırılması mühüm məsələdir, lakin bizim üçün mütləq prioritet müharibənin bitməsidir", - Çavuşoğlu əlavə edib.

Türkiyə diplomatiyasının rəhbəri həmçinin qeyd edib ki, Ankara həm Rusiya, həm də Ukrayna ilə əlaqələri davam etdirir.

# "Avropa İttifaqı "xristian süfrəsi"dir"

## Aqil Abbas: "Ukrayna-Rusiya münaqişəsi Moldovaya da təsir edə bilər"

**Ukrayna və Gürcüstanın ardınca Moldova da Avropa İttifaqına üzvlük üçün müraciət edib. Ölkə Prezidenti Maya Sandu namizəd ölkə statusu üçün rəsmi müraciət formasını imzalayıb. Sənədə prezidentlə yanaşı Baş nazir Natalya Qavrilita və parlamentin sədri İqor Qros da imza atıb.**



Ölkə prezidenti sənədin imzalanmasından öncə keçirilən brifinqdə "Biz sülh, demokratiya və azadlıq istəyirik" deyib. O, ölkə vətəndaşlarının Moldovanın gələcəyini Avropa İttifaqında gördüyünü vurğulayıb.

Sənəd yaxın günlərdə birliyə sədrlik edən ölkənin rəhbəri Fransa Prezidenti Emmanuel Makrona təqdim ediləcək.

**Rəsmi Kişinyovun İttifaqa müraciətinin arxasında dayanan səbəbləri "Şərq"ə açıqlayan millət vəkili Aqil Abbas bildirib ki, Ukrayna-Rusiya münaqişəsi Moldovaya da təsir edə bilər:**

"Avropa İttifaqına üzv olan dövlətlər Şengen vizası əldə edə bilirlər. Bu da gediş-gəlişi asanlaşdırır.

Üzv dövlətlərin insanları rahatlıqla Avropada işləyə bilərlər. İttifaqa qoşulmaq imkanı böyük şansdır.

Amma nəzərdə saxlamaq lazımdır ki, Avropa Birliyi iqtisadi əməkdaşlıqdır. Hərb birliyinə qoşulmaq istəyən dövlətlər NATO-ya üzv olmağa çalışmalıdır.

Moldovanın ittifaqa qoşulmaq üçün müraciəti qəbul edilə bilər. Çünki bu birlik "xristian süfrəsi"dir. Türkiyə kimi dünya güclərindən birini sıralarına qəbul etməyib, Ukrayna kimi hansısa "podval"da imza çəkən dövlətə yaşıl işıq yandırılması bunu sübut edir".

**Xanlar**

# Kasıb insanlar endirimli məhsullar alır, onun da vaxtı keçib

## Millət vəkili Qənirə Paşayeva mağazalardakı köhnə məhsullardan şikayətlənib

**Milli Məclisin dünənki iclasında "Qida təhlükəsizliyi haqqında" qanun layihəsinin müzakirəsi zamanı Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva vaxtı keçmiş məhsulların satışından şikayətlənib.**

Deputatın sözlərinə görə, qida təhlükəsizliyinin pozulması ilə bağlı qanunun tətbiqi əsasdır: "Bu qanunu pozanlar üçün cəzalar çox sərt olmalıdır. Bir çox şəhərdə mağazalarda vaxtı bitmiş məhsulları endirimli məhsul kimi verirlər, ya da məhsulun istifadə müddətinin bitməsinə isə 1-2 gün qalmış olur. Mağazalarda vaxtı keçmiş qidaları reklamla satırlar. Bunun qarşısı alınmalıdır. Çünki kasıb insanlar endirimli məhsulu alırlar. Cəza tədbirlərinin daha geniş qanun layihəsində əksini tapmasına böyük ehtiyac var. Söhbət əhalinin məhz sağlamlığı və genefond ilə bağlıdır".

*Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli isə bildirib ki, bu məsələ layihənin 36-cı maddəsində əksini tapıb: "Qanunun qəbulundan sonra deputatlar israr edərsə, bu məsələyə yenidən baxıla bilər".*

**İsmayıl**

**Milli Məclisdə iki rayonun ləğv edilməsinə dair layihə müzakirəyə çıxarılıb. Layihəyə əsasən, Gəncə şəhərinin Nizami və Kəpəz rayonlarındakı inzibati ərazi dairələri şəhərin İcra Hakimiyyətinin tabeliyinə verilir.**



# Gəncədən sonra Bakıda da 12 rayon ləğv edilməlidir

## Vüqar Tofiqli: "Gec-tez regional idarəetməyə keçəcəyik"

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edilib.

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə açıqlamasında rayonların ləğv edilməsini dəstəklədiyini bildirib:**

"Rayonların birləşdirilməsi regional idarəetmə siyasətinin əsasını təşkil etməlidir. İqtisadi zonalar üzrə regional idarəetməyə keçid həm kifayət qədər büdcə vəsaitinin qənaətinə, həm də vətəndaş məmnunluğunun təmin edilməsinə öz təsirini göstərə bilər.

Biz gec-tez regional idarəetməyə keçəcəyik. Bu sistem artıq əksər dünya ölkələrində tətbiq edilir. Gəncədən sonra paytaxt Bakıda olan 12 rayon da ləğv edilməlidir. Ləğvdən sonra milyonlarla vəsaitin ayrılmasına ehtiyac olmayacaq. Etiraf etməliyik ki, hazırda paytaxt rayonlarının elə də ciddi səlahiyyətləri qalmayıb.

İnsanlar hansı quruma müraciət edəcəyini bəzən anlaya bilmir. Amma regional idarəetmə yarandığı halda yerli idarəetmə bələdiyyələrə verilmiş olacaq. Bu da öz növbəsində əks-mərkəzləşməyə doğru addım kimi qəbul ediləcək.

Bələdiyyələrə səlahiyyətin verilməsi əslində vətəndaşın üzərinə məsuliyyət yükünün qoyulması kimi başa düşülməlidir. Bu həm də vətəndaş məmnunluğunun artırılması deməkdir."

**Xanlar Əlibəy**



# Vəziyyət Ukrayna üçün ürəkaçan deyil

## Razılaşma müharibənin daha şiddətli mərhələyə keçməsi deməkdir

**Rusiya-Ukrayna danışıqlarının ikinci raundu da geridə qaldı. Ukrayna prezident ofisi sədrinin müşaviri Mixail Podolyakın məlumatına görə, tərəflər müvəqqəti atəşkəsi və humanitar dəhlizlərin birgə təmin edilməsinə dair razılığa gəliblər:**

”Ukrayna nümayəndə heyəti gözlədiyi nəticəni əldə etməyib və dialoqu danışıqların üçüncü raundunda davam etdirəcək”.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə bildirib ki, atəşkəsin əldə edilməsi ərzaq və dərmanların çatdırılmasına şərait yaradılacaq. Onun sözlərinə görə, hər iki tərəfin buna ehtiyacı var:** Əgər razılaşmaya əməl edilərsə, Ukrayna zirzəmilərdə, eləcə də atəş altında qalan vətəndaşlarının evakuasiyasına nail olacaq. Ərzaq və dərman böhranı müəyyən qədər həll ediləcək və əlavə silahlar əldə etmək ehtimalı üçün zaman qazanacaq. Rusiya isə ordunu yenidən toparlaya və gücləndirə biləcək, dağılmış koordinasiyanı bərpa edəcək. Bu, müharibənin başa çatması yox, əksinə, daha da şiddətli mərhələyə keçməsi deməkdir. Putin Makronla telefon söhbətində maksimal hədəflərinə nail olana qədər dayanmayacağını deyib. Yelisey sarayının rəsmi məlumatında ”Prezident Makron həmkarı Putinin dediklərini nəzərə alaraq, ən pis vəziyyətin hələ qarşıda olduğu qənaətinə gəlib” deyilir. Putinin bir addım da olsun geri çəkilməməsinin səbəbi ”çəkilməyə yerinin” olmaması ilə yanaşı, Ukraynanın Qərbdən lazımi qədər dəstək ala bilməməsidir. Zelenskinin mətbuat konfransındakı açıqlamaları da bundan xəbər verir. Zelenskinin çıxışının ümumi məğzi budur ki, ”dünya Ukraynaya dəstək məsələsində gec qaldı”.

**A.Nərimanlıya görə, Kiyevin ən çox ehtiyacı olduğu iki məsələdə heç bir irəliləyiş yoxdur:** ”Ya hava məkanı uçuşa qadağan olunmalı, ya da döyüş təyyarələri verilməlidir. Rusiya Ukrayna şəhərlərini bombalayarkən, Qərbdə dəstəklə bağlı aparılan müzakirələr zaman alır. Zelenskinin sözləri dəstək məsələsində Qərb cəbhəsini birləşdirməyə hesablanmış kimi görünə bilər. Lakin hadisələrin inkişafı və Putinin artan aqressiyası fonunda Ukrayna üçün vəziyyətin ürəkaçan olmadığını da göstərir. Zelenski lider olaraq çətin vəziyyətdədir. Çünki onun qələbəsindən pay götürənlər çox olacaq, amma məğlubiyyətinə heç kim şərik olmayacaq. Ukrayna prezidentinin açıqlamaları Putinin önünü açır. Müvəqqəti atəşkəs razılaşması Rusiya orduna yenidən özünə gəlmək imkanı verəcək və Moskva köməksiz görünən Ukraynaya daha aqressiv hücumlar təşkil edəcək”.

“Zelenski lider olaraq çətin vəziyyətdədir. Çünki onun qələbəsindən pay götürənlər çox olacaq, amma məğlubiyyətinə heç kim şərik olmayacaq”

**İsmayıl Qocayev**

# Uduş yoxdur

## “Dünya post-Putin dövrünə hazırlaşır”

**Belarusda Ukrayna və Rusiya arasında danışıqların ikinci raundu başa çatıb. Nəticədə, tərəflər humanitar dəhlizlərin təşkili üçün müvəqqəti atəşkəslə bağlı razılığa gəliblər.**

Eyni zamanda Ukrayna Prezident ofisi rəhbərinin müşaviri Mixail Podolyak mediaya açıqlamasında danışıqların üçüncü mərhələsinin yaxın günlərdə baş tutacağını diqqətə çatdırıb: ”Tərəflər müvəqqəti atəşkəs və hərbi əməliyyatların getdiyi bölgələrdəki yaşayış məntəqələrinin sakinlərinin təxliyəsi üçün humanitar dəhlizlərin birgə təmin edilməsinə dair anlaşdılar. Ukrayna nümayəndə heyəti gözlədiyi nəticəni əldə etməyib və dialoqu danışıqların üçüncü raundunda davam etdirəcək”.

**Prosesi ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Azər Rəşidoğlu bildirib ki, kimlərsə bunu Ukraynanın geri çəkilməsi və Rusiyanın qələbəsi kimi təqdim edir:** ”Kökündən yanlış fikirdir. Hazırda qısa müddətlik humanitar dəhliz açılıb. İkinci Qarabağ savaşında da belə olmuşdu.

Rus ordusunun Ukraynaya işğalçı hücumu ərəfəsində öldürülən şəxslərin cəsədləri yollarda qalıb. Bu, ciddi epidemioloji fəsadlar yarada bilər. Qısa müddətlik elan edilmiş belə atəşkəs zamanı tərəflər meyitləri yığır, humanitar fəlakət yarada biləcək halların qarşısını alırlar. Döyüşlərin bundan sonra yenidən bərpa olunma ehtimalı yüksəkdir”.

Analitikin sözlərinə görə, hazırda tərəflər arasında belə qısa müddətdə atəşkəsin elan olunması gözlənilmir: ”Rusiyanın başlıca məqsədi Kiyevə hücumla Ukraynanı tam ələ keçirmək, xalqın seçdiyi qanuni prezident - Volodomir Zelenskini devirməkdir. Bununla rəsmi Moskva keçmiş SSRİ-ni bərpa etmək yolunda addımlar atır. Putin buna nail olmayacaq. Çünki son otuz ildə ilk dəfədir ki, Rusiya bu qədər ciddi iqtisadi, siyasi sanksiyalara məruz qalır”.

*A.Rəşidoğlunun fikrincə, Ukraynada Rusiya işğalına qarşı döyüşlər bundan sonra da davam edəcək və Putinin hakimiyyətdən devrilməsi ilə nəticələnəcək:* ”Artıq bütün dünya post-Putin dövrünə hazırlaşır”.



“Son 30 ildə ilk dəfə Rusiya belə ciddi iqtisadi, siyasi sanksiyalara məruz qalır”

**Günəş Mərd**




# Rusiyanın işğalçılıq planları pozulur

**Səməd Seyidov:**
“Bakı bir neçə dəfə Zelenskinin çıxışlarında ”təşəkkür” sözü ilə müşayiət olunub. Rusiya ilə əlaqələrimiz də yüksək səviyyədədir”



**Samir Hümbətov:**
“Rusiya uğur qazanarsa, beynəlxalq səviyyədə nüfuzunun qalxma, işğalçılıq siyasətini gücləndirmə ehtimalı var”



**Rusiya-Ukrayna müharibəsinin yaratdığı böhranın miqyası genişlənir. Qərb-Rusiya qarşıdurmasının yön alacağı istiqamətlər gündəmin ilk sırasındadır. Ukrayna Prezidenti Volodimir Zelenski mətbuata açıqlamalarla çıxış edib.**

O, jurnalistlər üçün təşkil etdiyi brifinqdə Qərb ölkələrini vaxtında bu faciənin qarşısını almamaqda günahlandırıb. ”Biz ailələrimizə, sevdiklərimizə, Ukraynanı itirməyimizə görə qorxuruq. Qərb və NATO-dan təhlükəsizlik təminatı istəyirik.

Biz savaşa girin demirik, savaşın qarşısını alın söyləyirik. Amma burada Qərb tərəfindən bir zəiflik gördük ”, - deyə dövlət başçısı diqqətə çatdırıb.

O, gec də olsa ölkəyə silah göndərən dövlətlərə təşəkkür etdiyini söyləyib:

”Onların gecikməsi minlərlə ukraynalının həyatı bahasına başa gəldi”.

Dövlət başçısı xəbərdarlıq edib ki, əgər məğlubiyyətə uğrasalar, növbədə Baltikyanı ölkələr, Polşa, Gürcüstan və digərləri olacaq.

**Zelenskinin açıqlamasına münasibət bildirən Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov Azərbaycanın Ukraynaya 5 milyon dollar humanitar yardım göstərdiyini vurğulayıb:**

”Təyyarələr göndərilib. Ərazi bütövlüyümüzlə bağlı ən müqəddəs dəyər kimi bütün xalqları müdafiə edirik. Həmçinin Həmişə Birləşmiş Millətlər Təşkilatı (BMT), Xarici İşlər Nazirliyi (XİN) və AŞ PA nümayəndələri bütün ölkələrin, o cümlədən Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib. Bizim siyasətimiz dürüstdür, açıqdır. Qonşularla normal şəkildə münasibətlər qururuq. Heç də təsadüfi deyil ki, Bakı bir neçə dəfə Zelenskinin çıxışlarında ”təşəkkür” sözü ilə müşayiət olunub. Rusiya ilə əlaqələrimiz də yüksək səviyyədədir. Bir sözlə, Azərbaycan başqa ölkələr üçün nümunədir”.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, siyasi şərhçi Samir Hümbətov deyib ki, uzun müddətdir, V.Putinin növbəti hədəflərilə bağlı məlumatlar yayılır:**

”Rusiya Ukrayna məsələsində uğur qazanarsa, beynəlxalq səviyyədə nüfuzunun qalxma, işğalçılıq siyasətini gücləndirmə ehtimalı var. Rəsmi Moskvaya qarşı tətbiq edilən sanksiyalar onun iqtisadi, hərbi vəziyyətinin inkişafını ləngidir. Əgər sanksiyalar uzun müddət qüvvədə qalarsa, Rusiyanın iqtisadi cəhətdən sarsılması ilə nəticələnəcək. Lakin müharibədə rahat şəkildə uğur əldə edəcəyini, qazanacağını da düşünmürəm”.

*Analitikin sözlərinə görə, Rusiya Ukrayna böhranında dalana dirənib, geriyə addım ata bilmir:*

”Hətta Kiyevi tutaraq mövcud hakimiyyəti devirib, əvəzinə özünün istədiyi ”oyuncaq hakimiyyət” qurarsa, yenə də iqtisadi durumu əvvəlki kimi olmayacaq. İqtisadiyyatı çökən dövlətin zəifləməsi sürətlənə bilər. Bu da digər hücum məsələsini sual altına salır. Təbii Baltikyanı ölkələri, Polşanı və digər əraziləri zəbt etməsi onun imkanlarından asılıdır. Hələ imkanları həmin səviyyədə deyil. Ona görə də V.Zelenskinin dediyinin tam gerçəkləşəcəyinə inanmıram. Rusiyanın böyük arzusudur, lakin reallıq şərait yaratmır. Qərb ölkələrinin Rusiyaya qarşı sanksiyaları onun işğalçılıq planlarını davam etdirməsinə imkan verməyəcək”.

**Aygün Tahir**

# "Putinin Ukraynaya savaşı ən çox ABŞ-ın işinə yaradı"

## Toğrul İsmayıl: “Qərbin dəstəyinin əhəmiyyətli olmayacağı, sanksiyalardan və humanitar yardımdan o tərəfə keçməyəcəyi bəlli idi”

**Rusiya-Ukrayna müharibəsində humanitar məsələlər üçün müvəqqəti atəşkəs əldə olunsa da, gərgin və kritik vəziyyət davam etməkdədir. Bəzi ekspertlər qısa müddət sonra hərbi əməliyyatların yenidən başlayacağına əmindirlər. Son günlər ölkə rəhbərləri arasında telefon zəngləri də intensivləşib. Fransa Prezidenti E.Makron Rusiya rəhbəri V.Putin və Ukraynanın dövlət başçısı V.Zelenski ilə danışıb.**

Yelisey sarayının yaydığı məlumata görə, Putin hər hansı kompromisdən qəti şəkildə imtina edib və Ukraynanı almayınca, dayanmayacağını bildirib. Putin Təhlükəsizlik Şurasının iclasında çıxış edərkən prosesin plan üzrə getdiyini söyləyib. Savaşın başladığı müddətdən keçən 9 gün ərzində Rusiya ordusu Ukraynada hava məkanını əhəmiyyətli dərəcədə nəzarətə götürüb. Ukraynanın HHM sistemlərinin böyük əksəriyyəti sıradan çıxıb. Dənizdə də üstünlük Rusiyanın tərəfindədir. Ukraynada yaşayan soydaşlarımız da vəziyyətin həddən artıq dramatik olduğunu bildirirlər. Son günlərə qədər Kiyevdə qalmağa davam edən soydaşlarımız artıq nəinki Ukrayna paytaxtından, hətta Lvovdan çıxırlar. Qərb ölkələri də Rusiyanın hərbi imkanlarını daha çox səfərbər etdiyinə, əlavə resurs xərclədiyinə diqqət çəkirlər.

Rusiyanın Ukraynaya hərbi təcavüzü və mövcud durumla bağlı ”Şərq”in suallarını cavablandıran Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Ankara Universitetinin professoru Toğrul İsmayıl vəziyyətin kifayət qədər dramatik olduğunu söyləyib. Professor bildirib ki, Rusiyanın ”qısamüddətli hücum”u baş tutmadı...

**- Toğrul müəllim, Rusiyanın ”48 saatlıq” işğal planından 10 gün keçdi. Nəticə Ukrayna üçün fəlakət olsa da, Rusiya üçün də ürəkaçan deyil. Sizcə, heç nəyə məhəl qoymayan Putinin Ukrayna ilə bağlı konkret planı nədir?**

- Kremlin məqsədi paytaxt Kiyevi tutaraq digər bölgələrin nəzarətini ələ keçirmək və hökuməti devirmək idi. Zelenskini Rusiyaya yaxın siyasi qüvvələrlə əvəzləmək Kreml üçün zərurət halına gəlmişdi. Amma Moskva bunu reallaşdıra bilmədi. Planların reallaşmaması Kremli daha da hiddətləndirdi. Qəzəbli Rusiya sadəcə hərbçiləri deyil, sivilləri də hədəf aldı. Şübhə yox ki, işğal nəticəsində mülki vətəndaşlar arasında itkilər çoxalacaq və ölkədə xaos dərinləşəcək. Rusiyanın təcavüzünün davam etməsi Qərbin də etirazlarını, təzyiqlərini artıracaq. Reallıq isə odur ki, müharibə artıq Ukraynanın hər bölgəsinə yayılıb. Kiyevi və ukraynalıları narahat edən məqamlardan biri də rus ordusunun atom elektrik stansiyalarını hədəf alması və oranı bombalamaq cəhdidir. Bunun necə bir fəlakətə yol açacağı hamıya bəllidir.

**- Müharibədə işğalçı Rusiya ilə yanaşı, Kiyevə ciddi dəstək verməyən Qərb ölkələri də tənqid olunur. Qərb Ukraynaya lazımi dəstək verdimi, yoxsa Kiyev ruslar qarşısında tək qaldı?**

- Düşünmürəm ki, ABŞ və Avropa müharibədə Ukraynaya yetərli dəstək verdilər. Əslində Qərbin dəstəyinin əhəmiyyətli olmayacağı, sanksiyalardan və humanitar yardımdan o tərəfə keçməyəcəyi bəlli idi. Heç bir Qərb ölkəsinin vətəndaşı Ukrayna uğrunda döyüşə girməz. Amerika və Avropa ölkələrinin daha çox öz maraqları çərçivəsində addım atdıqları məlumdur. Qərbin Rusiya əleyhinə görəcəyi tədbirlərin başında iqtisadi sanksiyalar gəlir. Məsələ ondadır ki, Rusiyanın bu şəkildə hücumu qarşısında istənilən ölkə tək qalacaq. Görünür, ABŞ və Avropa kəşfiyyat orqanları Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlayacağından xəbərdar imişlər. Xatırlayırsızsa, bir neçə dəfə hücumun vaxtını da açıqlamışdılar. Qərb Rusiyanın aqressiyasından istifadə edərək Moskvanı işğala çəkə bildi. Rusiya bütün dünyada işğalçı dövlət kimi özünü təsdiqlədi. Amerika bu siyasətlə Avropa ölkələrini yenidən ətrafında daha sıx birləşdirdi. Yəni Putinin Ukraynaya savaş açması ən çox ABŞ-ın işinə yaradı.

**- Zelenski Ukraynaya 16 minlik xarici ölkələrdən ordu birləşmələrinin gəldiyini söylədi. Bu dəstələr müharibənin gedişatına təsir göstərə bilərmi?**

- Son dövrlərdə böyük dövlətlərin birbiri ilə açıq savaşa girdiyini görməmişik. Böyük güclər ”vəkalət savaşları” ilə, yəni birbaşa özləri iştirak etmədən digər qüvvələrlə mübarizə aparıblar. Qərb də Rusiyaya qarşı bu taktikadan istifadə edir və Ukrayna əsgərlərinin yararlanmaması üçün müasir silah-sursat yardımı göstərir. Əgər 16 minlik xarici ordu peşəkarlardan ibarət olarsa, savaşın gedişatına ciddi təsir göstərə bilərlər. Müharibə uzanarsa, Rusiyaya qarşı partizan hərəkatı da başlayacaq. Ukrayna öz gücü hesabına bir həftədən çox dirəndi və əsas şəhərlərini müdafiə etdi. Əlavə hərbi dəstəklə uzun müddət ruslara dirəniş göstərmək mümkündür. Amma Rusiyanın bir neçə istiqamətdə hücumlarının qarşısını almaq çox çətindir.

**- Rusiyanın səbəb olduğu sanksiyalara görə daxildə də hökumətə etirazlar var. Xüsusən, oliqarxların narazılığı açıq-aşkar hiss olunur. Moskva iqtisadi sanksiyalara tab gətirəcəkmi? Yoxsa çöküşü qaçılmazdır.**

- Budəfəki sanksiyalar çox sərt və daha təsirlidir. Nəzərə alaq ki, söhbət sadəcə iqtisadi sanksiyalardan getmir. Demək olar ki, bütün dünya Rusiyaya qarşı addımlar atmaqda, hər sahədə sanksiyalar tətbiq olunmaqdadır. Siyasi, hərbi, mədəni, idman və s. sahələrdə də Moskvaya qarşı təzyiqlər, məhdudiyyətlər var. Bir-iki ölkəni çıxmaqla Kremlin işğalçı siyasətinə dəstək verən dövlət yoxdur. Dünyadan təcrid olunan Rusiyanın yenidən özünü dirçəltməsi olduqca mürəkkəb olacaq. Qərbin məqsədi Kremli geri addım atmağa məcbur etməkdən daha çox Rusiyanı çökdürməkdir. Elə vəziyyət yaradıblar ki, təkcə Rusiyanın siyasiləri, iş adamları, diplomatları deyil, bütün rus təbəqəsi, sadə insanlar belə sanksiyalardan qaça bilmir. Bu çökdürmə siyasətinin Ukrayna ilə müharibəyə necə, hansı formada təsir göstərəcəyini demək çətindir.

**- Maraqlı məqamlardan biri də Türkiyənin mövqeyi və Ukraynaya dəstəyidir. Zelenski də Ərdoğanın fəaliyyətini yüksək qiymətləndirdi. Ankara hökumətinin proseslərə yanaşmasını necə qiymətləndirirsiniz?**

- Türkiyə hər zaman, hər addımı ilə müharibənin əleyhinə çıxıb. Ankara əlindən gələni etdi ki, müharibə başlamasın. Türkiyə Ukraynanın ərazi bütövlüyünü tanıdığını, Krımın ruslar tərəfindən ilhaq edildiyini, indi də işğalçılıq siyasəti həyata keçirdiyini açıq-aşkar bəyan etdi. Lakin reallıq odur ki, Türkiyə beynəlxalq müstəvidə ciddi iqtisadi əlaqələri olan, yeri gələndə mühüm məqamlarda strateji tərəfdaşlıq etdiyi Rusiyanı da itirmək istəmir. Hazırda Ankaranın Moskvaya təsir mexanizmini işə salması çox çətindir. Ukrayna işğalı Putinin şəxsi planıdır və bir növ Kreml rəhbərinin ”prestij” məsələsinə çevrilib. Türkiyə aktiv tərəfsizliyini qorumağa çalışır. NATO üzvü olduğu üçün addımlarını bəlli xəttə qədər ata bilir.



“Rusiya bütün dünyada işğalçı dövlət kimi özünü təsdiqlədi. Amerika bu siyasətlə Avropa ölkələrini yenidən ətrafında daha sıx birləşdirdi”

**İsmayıl Qocayev**

# Rusiya da, Ukrayna da Ankaraya inanır

## Türkiyə indiki mərhələdə aktiv vasitəçi rolunu oynaya bilər



**Ukrayna Prezidenti V.Zelenski Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ukraynaya əhəmiyyətli dəstək verdiyini və müharibəni bitirmək üçün bir çox addımlar atdığını bildirib. Zelenski xarici jurnalistlərə Ərdoğanla yaxın münasibətləri olduğunu vurğulayıb:**

"Çox yaxşı münasibətlərimiz var. Oradan pilotsuz təyyarələr alınıb və bu, böyük köməkdir. Ərdoğanın Ukraynaya kömək etdiyi bir çox məsələlər var. Mən ona çox minnətdaram. Siyasi səviyyədə o, həm də bir çox addımlar atır ki, Rusiya prezidenti müharibəni bitirməyin vacibliyini başa düşsün". Zelenski, həmçinin qeyd edib ki, Türkiyə gələcəkdə Ukraynanın təhlükəsizliyinin təminatçılarından birinə çevriləcək və Rusiya ilə danışıqlar prosesinə təsir göstərəcək: "Dünya liderlərinin çoxunda belə bir imkan yoxdur. Çox adam istəyir, amma az adamda belə bir fürsət var. Ərdoğan çox güclüdür, çox ciddi prezidentdir və bizə kömək edir. Düşünürəm ki, Türkiyə Ukrayna üçün təhlükəsizlik təminatlarını təqdim edən ölkələrdən biri olacaq".

**Zelenskinin Türkiyə dövləti və lideri barəsində dediklərini "Şərq"ə təhlil edən politoloq Azər Qasımov deyib ki, Ankaranın Rusiya-Ukrayna gərginliyində oynadığı rol əsasən gərginliyin azaldılması və tərəflər arasında danışıq mühitinin bərpa edilməsi istiqamətində olub.** Analitik bildirib ki, Türkiyə tərəflərin hər ikisini özünəməxsus tərzdə dəstəkləməklə müəyyən razılaşmaların əldə ediləcəyi mühüm görüşlərin təşkilatçısı və zəmanətçisi olmaq potensialını özündə saxlayır: "Türkiyənin tərəflər arasında müharibəyə aktiv qatılmamasının, Rusiyaya tətbiq edilən sanksiyalara qoşulmaması, rus hərbi gəmilərinin boğazlardan keçməsinə icazə verməməsinin tək səbəbi var. Ankara hökuməti başa düşür ki, 15 ildir yığılıb qalan, 2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaqı və Donbass bölgəsinin separatçı qruplar tərəfindən gərginlik ocağına çevrilməsi ilə artan gərginliyin müharibə ilə nəticələnəcəyi mütləq idi. Türkiyə bütün səylərin əbəs olduğunu dərk edirdi. Tərəflər 8 gündə nəyə qadir olduqlarını ortaya qoydular. Artıq danışıq masasında razılığa gəlməyə meyillidirlər. Rusiya da sanksiyalardan və hərbi itkilərdən dolayı masaya əyləşməkdə maraqlıdır. Bu mərhələdən sonra Türkiyənin tərəflər arasında aktiv vasitəçi rolunu oynaması həm mümkün, həm də vacibdir. Çünki tərəflər razılaşmalara nəzarət edə biləcək yeganə etibarlı ölkə kimi Türkiyəni və onun müttəfiqi Azərbaycanı görürlər".

**İsmayıl Qocayev**

**Rusiya və Ukrayna humanitar dəhlizlərin təşkili üçün müvəqqəti atəşkəslə bağlı razılığa gəliblər.Belarusda rəsmi Kiyev və Rusiya arasında danışıqların ikinci mərhələsi başa çatıb.**

Tərəflər müvəqqəti atəşkəs və danışıqları davam etdirmək barədə razılığa gəliblər.



# Tərəflər sadəcə vaxt qazanır

## Danışıqlarla əsas siyasi hədəflərə nail olunmayacaq

Məlumata görə, danışıqların üçüncü mərhələsi yaxın günlərdə baş tutacaq.

Ukrayna Prezident ofisi rəhbərinin müşaviri Mixail Podolyak qeyd edib ki, rəsmi Kiyevin nümayəndə heyəti gözlədiyi nəticəni əldə edə bilməyib. Qeyd edək ki, rus qoşununun dərhal Ukraynadan çıxarılması üçün rəsmi Kiyev dəfələrlə tələblər qoyub. Rusiya tərəfi isə yalnız müvəqqəti atəş üçün razılaşmaya gedib.

**Rusiya və Ukrayna arasındakı danışıqlardan "Şərq"ə bəhs edən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov tərəflərin danışıqlarla istədikləri nəticəni əldə edə bilməyəcəyini bildirib:**

"Əslində, hərbi əməliyyatların indiki mərhələdə dayandırılması heç bir tərəfi qane etmir. Onların məqsədləri bəyan olunub. Ancaq həll etməyə imkan yaranmayıb. Gələcək təmaslar əsasında dəyişikliklər baş verə bilər.

Proseslər ilk növbədə Rusiya ilə bağlı özünü göstərəcək. Çünki şimal qonşumuzda ciddi iqtisadi böhran yaşanacaq.

Bu halda siyasi problemlər qaçılmazdır. Hesab edirəm ki, müvəqqəti də olsa, atəşkəs rejiminə riayət etmək strateji baxımdan Ukrayna üçün daha sərfəlidir. Ancaq bu danışıqlar vasitəsilə əsas siyasi hədəflərə nail olunmayacaq"

**Cəmilə Əzim**

# "Yarım saata Zelenski ilə məsələni həll edərəm"

## Kadırov Putindən göstəriş gözləyir



**Çeçenistan rəhbəri Ramzan Kadırov Rusiya Prezidenti Vladimir Putindən Kiyev və Xarkovu ələ keçirmək üçün göstəriş istəyib.**

"Şərq" "RBK"ya istinadən xəbər verir ki, R.Kadırov V.Putindən Ukraynada hərbi əməliyyatların başa çatmasına icazə və döyüşçülərə özlərini sübut etməyə imkan verməyi xahiş edib. O, Rusiya prezidentindən bütün mümkün və qeyri-mümkün qüvvələrdən istifadə etməyi rica edib. Çeçenistan rəhbəri Ukraynadakı vəziyyəti bütün dövlət üçün təhlükə adlandırıb.

Eyni zamanda R.Kadırov özünü V.Zelenski ilə danışıq aparan şəxs kimi təklif edib və "yarım saat ərzində onunla hər şeyi həll edəcəyini" dilə gətirib.

**Çimnaz**

# "Ukraynaya hərbi təcavüzü qınayırıq"

## Boran Əzizli: "Əgər ruslar əsrlər öncəsinə əsaslanaraq, sərhədləri dəyişdirməyə çalışırsa, o halda bir çox dövlətlər xəritədən silinməlidir"



**"Rusiyanın işğalçılıq siyasətini və Ukraynaya hərbi təcavüzünü qınayırıq".**

**Bu barədə "Şərq"ə tarixçi-alim Boran Əzizli deyib. Tarixçi bildirib ki, Ukrayna xalqının tarixi, dövlətçiliyi ilə bağlı Kreml rəhbərliyi tərəfindən irəli sürülən fikirlər tamamilə absurd və uydurmadır:**

"Ukrayna ərazilərinə iddia etmək, bölgənin "rus torpaqları" olduğunu söyləmək Rusiyanın işğalçılıq siyasətinə haqq qazandırmaq, ideoloji don geyindirmək cəhdidir. Əgər ruslar əsrlər öncəsinə əsaslanaraq, sərhədləri dəyişdirməyə çalışırsa, o halda bir çox dövlətlər xəritədən silinməlidir. Yəqin ki, ruslar özləri də mərkəzləşmiş dövlət yaratmazdan öncəsi dövrləri, imperiya qurduqları ərazilərin kimlərə məxsus olduqlarını yaxşı bilirlər. Ona görə də belə iddialar yolverilməz və ən əsası da Moskvanın özü üçün təhlükəlidir. Bu həm də tarixin təhrif edilməsidir. Ukrayna torpaqları ruslara məxsus deyil".

**İsmayıl**

# Bəşər Əsəd Ermənistana muzdlular göndərir

## Döyüşçülər məhz İrəvanın vasitəsi ilə Ukraynaya yola salınır



**Rusiya Ukraynada döyüşmək üçün Suriyadan muzdlu əsgərlər gətirib.**

"Haber Qlobal"ın əldə etdiyi kəşfiyyat məlumatlarına görə, Suriya Prezidenti Bəşər Əsədin Rusiyaya göndərdiyi muzdluların Ukraynaya marşrutu da müəyyən edilib.

Suriyanı tərk edən muzdlular Ermənistana aparılır.

Ermənistanın Erebuni aviabazasında toplanan bu əsgərlər Rusiyanın Şimali Osetiya Respublikasının Mozdok şəhərinə gətirildikdən sonra Rusiya komandası ilə birlikdə Ukraynaya göndərilir.

Bildirilir ki, Rusiya B.Əsədin Ermənistan vasitəsilə göndərdiyi muzdlularla Suriyada olduğu kimi Ukraynada da qeyri-sabitlik yaratmağı hədəfləyir.

**Aygün Tahir**

# "Ukraynada yarım milyon azərbaycanlı yaşayır"

## **Sabir Rüstəmxanlı:** "Onların yarıdan çoxu Qarabağdan gedəndir, hər birini təxliyə etmək bizim borcumuzdur"



**Dünən Milli Məclisin yaz sessiyası çərçivəsində növbəti plenar iclas keçirilib. İclasın gündəliyində 11 məsələ olub. Əvvəlcə deputatlar cari məsələlərlə bağlı çıxışlar edərək, problem, təklif və iradlarını gündəmə gətiriblər. Deputat Sabir Rüstəmxanlı deyib ki, bu gün dünya çox ağır durumdadır.**

Üçüncü dünya savaşı hər an, hər gün başlaya bilər. Millət vəkili bildirib ki, dünya öz torpaq bütünlüyünü qorumaq uğrunda apardığı mübarizədə Ukraynanın yanındadır: "Biz 30 il müharibə şəraitində yaşamışıq. Təəssüf ki, 30 ildə dünya bizi müdafiə etmədi. Bu gün isə dünya Ukraynanın yanındadır. Bu bizi sevindirir. Amma istərdik ki, bu münasibət bizə də göstərilsin. Ukraynadan gedənlərə, qaçqınlara Avropa sahib çıxır. Bu gün bəzi mətbuat orqanlarında Azərbaycanın atdığı addımlarda səhvlər axtarmağa çalışırlar. Amma dövlət başçısının atdığı addımlar çox praqmatikdir. Ukraynada yarım milyon azərbaycanlı yaşayır. Onların yarıdan çoxu Qarabağdan gedəndir. Onların hər birini təxliyə etmək bizim borcumuzdur. Amma biz Ukraynanı tərk edən qaçqınlara da qucaq aça bilərik".

**"Prezidentin siyasi məharəti bölgəmizi məhv olmaqdan qoruyub"**

**Milli Məclisin iclasında parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, Rusiya-Ukrayna müharibəsi fonunda dünyada təhlükəsizliyin son 75 ildə ən aşağı səviyyəyə düşdüyü şəraitdə, Azərbaycan dövlətinin yürütdüyü siyasət müstəsna əhəmiyyət daşıyır.** Z.Oruc deyib ki, təkcə son bir ayda, dövlət rəhbərinin Ukraynaya və Rusiyaya səfərləri, yalnız ölkəmizin suverenliyinin təminatı deyil, həm də hazırda dünyanın təhlükəsizliyini sarsıdan, böyük humanitar, iqtisadi və hərbi fəlakətə yol açan müharibənin baş verməməsi üçün dürüst, ləyaqətli çalışmalar kimi tarixdə qalacaq: "Yalnız Azərbaycan və Türkiyə davamlı sülh təşəbbüsləri ilə çıxış edir, bəşəriyyətin varlığını təhdid edən nüvə savaşına yol verilməməsi üçün Rusiya və Ukrayna ilə eyni masada əyləşməyə haqq qazanır. İndi xalqımız daha aydın görür ki, ikinci Qarabağ müharibəsinin ABŞ-Rusiya-Fransa-Türkiyə-İran arasında beynəlmiləl savaşa çevrilməməsi üçün Prezident İlham Əliyevin siyasi məharəti bölgəmizi məhv olmaqdan qoruyub, Qarabağı 90-cı illərdə olduğu kimi qlobal toqquşma meydanı olmaqdan xilas edib. Heç olmasa, indi klavitura qəhrəmanları qələbəmizin əsl səbəblərini dərk edirlərmi?".

**"Araik və digər erməni cinayətkarlar hələ də həmin ərazilərdə qalır"**

**Deputat Nigar Arpadarai deyib ki, üçtərəfli bəyanat imzalanandan sonra Ombudsman tərəfindən sülhməramlıların nəzarəti altında olan ərazilərdə monitorinqlər aparılıb-aparılmaması məsələsi qalır:** "Hazırda həmin ərazilərdə erməni cinayətkarlar hələ də qalır. Onlardan biri də elə Araik Arutyunyandır. Onlar silahlıdır, bu da ona gətirib çıxarır ki, orada olan azərbaycanlı və erməni əsilli vətəndaşlarımız həmişə risk altındadır. Ona görə hesab edirəm ki, bu məsələdə həm sülhməramlılar, həm də aidiyyəti qurumlarla iş aparılmalıdır".

**"Ortada heç bir ciddi iş yoxdur"**

**Parlamentdə sənədsiz evlərlə bağlı problem qaldırılıb. Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib ki, sənədsiz evlərin inventarlaşdırılması ilə bağlı problem uzun zamandır ki, qalmaqdadır. Deputat bildirib ki, müvafiq qurumlar ancaq bu problemin həllinə baxdıqlarını deyirlər:** "Amma ortada heç bir ciddi iş yoxdur. Burada problem nədir? Niyə bu iş uzanır?! Çıxıb açıqlama versinlər. Bununla bağlı sərəncamlar, sənədlər var. Amma problem həll olunmur".

**"Bəzi ailələr Nazirlər Kabinetindən bunu xahiş edirlər"**

**Milli Məclisdə şəhid adının əbədiləşdirilməsi prosedurunun sadələşdirilməsi təklif olunub. Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib ki, şəhid adlarının küçələrə verilməsinə ehtiyac var. Bəzi rayonlarda bu iş sürətlə gedir, amma bəzi rayonlarda yox:** "Şəhid adının əbədiləşdirilməsi işinə ümumi şəkildə baxılması yaxşı olar. Bəzi ailələr Nazirlər Kabinetindən bunu xahiş edirlər. Bu, qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar günü münasibətilə şəhid analarına ən böyük hədiyyə olar. Rayonlarda parklar, küçələr var ki, ora şəhid adları verilə bilər. Bu iş sürətləndirilməlidir". Deputat Razi Nurullayev də Qənirə Paşayevanın təklifini dəstəkləyib. O bildirib ki, Nazirlər Kabinetinin 25 avqust 1999-cu il tarixli qərarına düzəlişlər edilməlidir: "Mən icra hakimiyyətləri ilə danışmışam. Xeyli adsız və adı məna kəsb etməyən küçələr var. Bu məsələ həll edilə bilər. Amma bunun üçün Nazirlər Kabinetinin qərarına və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə dəyişiklik etmək lazımdır".

## "Amma biz Ukraynanı tərk edən qaçqınlara da qucaq aça bilərik"

**"Məhkəmə nə iddiaçının xeyrinə, nə də ziyanına qərar qəbul edir"**

**Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev Gəncə İnzibati Məhkəməsinin fəaliyyətinin araşdırılmasını istəyib. Deputat bildirib ki, məhkəmə hakimiyyətinin gücləndirilməsi üçün görülən işlər yetərli deyil:** "Çox təəssüf ki, biz iqtisadiyyatımızı azad rəqabətə əsaslanan bazar iqtisadiyyatına uyğun qura bilmirik. Gəncənin İnzibati Məhkəməsi ilə əlaqədar süründürməçiliklə bağlı şikayətlər çoxdur. Məhkəmə nə iddiaçının xeyrinə, nə də ziyanına qərar qəbul edir. Buradan Məhkəmə Hüquq Şurasına müraciət edirəm ki, bu məhkəmənin fəaliyyəti araşdırılsın. Eyni zamanda Gəncə Apelyasiya Məhkəməsinin inzibati kollegiyası ilə bağlı şikayətlər var. Gəncə Azərbaycanın ən böyük ikinci şəhəridir. Biz orada zaman-zaman insanların incidilməsini görmüşük".

**"Azərbaycan heç bir xalqın taleyinə biganə deyil"**

**Deputat Ceyhun Məmmədov deyib ki, "dünyada və regionda ciddi proseslər gedir. O bildirib ki, son hadisələr Prezident İlham Əliyevin bütün prosesləri son dərəcə dəqiq proqnozlaşdıraraq ölkəmizin təhlükəsizliyinin və suverenliyinin qorunması istiqamətində ciddi addımlar atdığını bir daha göstərdi:** "Tarixin heç bir dönəmində olmadığı kimi, bu gün də Azərbaycan dövləti heç bir xalqın və ya dövlətin taleyinə biganə və laqeyd deyil, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan gücü və imkanları çərçivəsində mümkün olanı hər zaman edib. Münaqişədən əvvəl hər iki ölkəyə səfərlərin edilməsi, böhran vəziyyətində bir sıra dövlətlər hələ tərəddüdlü mövqe nümayiş etdirərkən Azərbaycanın Ukraynaya humanitar yardım göstərməsi bu fikri bir daha təsdiq edir". Deputat bildirib ki, 30 il müharibənin ağır yükünü daşımış, acısını yaşamış bir xalq kimi Azərbaycan xalqı müharibənin və humanitar fəlakətin nə olduğunu çox yaxşı anlayır: "Bu gün ölkəmizin qarşısında çox mühüm vəzifələr durur, olduqca həssas bir dönəmə daxil olmuşuq. Yenə də ermənilər xaricdə Azərbaycan əleyhinə təbliğatlarını və düşmənçiliklərini müharibədən əvvəl olduğu kimi davam etdirirlər. Bizim isə xalq olaraq bir yolumuz var. O da daha da güclü olmaq, birlik və həmrəyliyimizi qorumaq, Prezidentimiz ətrafında sıx birləşmək, dövlətçiliyimizi daha da gücləndirməkdir".

**"Gənclərə üstünlük verilməsini məqsədəuyğun hesab edirəm"**

**Deputat Müsfiq Cəfərov xaricdə təhsillə bağlı problemlərdən danışıb:** "Prezident tərəfindən 2022-2026-cı illəri əhatə edən gənclərimizin xarici ölkələrdə nüfuzlu təhsil müəssisələrində təhsil almaları ilə bağlı sərəncam imzalayıb. Nazirliklər öz ehtiyaclarına uyğun mütəxəssislərin formalaşmasını irəli sürərsə, onda xaricdə dövlət tərəfindən təhsil alan şəxsin iş tapmamaq kimi problemi də qalmayacaq. Gənclər İELTS və ya TOEFL imtahanlarından yetərincə bal topladıqdan sonra xaricdə ali məktəblərə daxil olmaq imkanı əldə etmiş olurlar. Ancaq buna baxmayaraq, bir çox hallarda akademik ingilis dili yetərincə olmadığından o universitetlərdə birbaşa tədrisə keçid almaq bir sıra çətinliklər yaradır. Digər tərəfdən, gənclərimizin təhsil aldığı ölkələrdəki diaspor və səfirliklərimizlə əlaqələr qurulmalıdır. Çünki təhsil almalarıyla yanaşı, həqiqi bir mütəxəssis kimi formalaşmaq üçün o gənclərin həmin ölkənin bütün resurslarından faydalanmasına şərait yaratmaq lazımdır. Bu aspektdə təcrübə proqramlarına diqqət çəkmək istərdim. Hər bir tələbə təcrübə keçmək üçün ixtisası üzrə təşkilatı və ya müəssisəni özü axtarmalı olur. Belə olan halda yad bir ölkədə əlaqələrin olmadığı təqdirdə bu təcrübə proqramlarından yararlana bilmirlər". Onun sözlərinə görə, xaricdə təhsil proqramından yararlanmaq istəyən gənclər tərəfindən gələcəklə bağlı baxışlarını, ölkəmizə nə kimi fayda vermək niyyətlərini əks etdirən bir essenin, inşanın yazılması da vacibdir: "Maddi durumu xaricdə təhsil almağa kifayət etməyən, lakin həqiqi bir mütəxəssis olacağına inamı olan gənclərə üstünlük verilməsini də məqsədəuyğun hesab edirəm".

**İsmayıl Qocayev**

# BMT sülhməramlılarının Ukrayna ərazisində yerləşdirilməsi çətin prosesdir



*Pənah Hüseyn: "Ukraynanın müraciəti ilk növbədə hazırda tərəflər arasında elan edilmiş atəşkəs və ona əməl olunması ilə bağlıdır"*

*Sabir Məmmədli: "Belə olduqda BMT-nin Nizamnaməsində də müəyyən dəyişikliklər edilməlidir. Bu isə çətin və qısa müddətdə həlli mümkün olmayan məsələdir"*

**Martın 3-də Ukrayna Ali Radasının plenar iclası keçirilib. Parlament beynəlxalq təşkilatlara bir sıra müraciətləri təsdiqləyib.**

Ukrayna parlamentariləri beynəlxalq ictimaiyyəti təcili olaraq mülki əhalinin Rusiya qoşunlarının silahlı hücumlarından müdafiəsini təmin etmək üçün yardıma çağırıblar. Xalq deputatları müharibənin dayandırılması üçün vasitəçi olmaq xahişi ilə BMT-nin baş katibinə müraciət edib.

**Sabiq baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn və BDU-nun Jurnalistika fakültəsinin professoru Sabir Məmmədli hazırda BMT-nin Ukraynada göstərə biləcəyi fəaliyyət istiqamətlərindən "Şərq"ə danışıblar. P.Hüseyn bildirib ki, BMT-nin sülhməramlı əməliyyatları ilə bağlı müəyyən rezidentlər var:**

"Qurumun bu istiqamətdəki fəaliyyəti həmin sənədlərdə konkret ifadə olunub. Ukrayna tərəfin bura müraciəti ilk növbədə hazırda tərəflər arasında elan edilmiş atəşkəs və ona əməl olunması ilə bağlıdır. Digər tərəfdən BMT-nin mandatında olan sülhməramlı qüvvələrin səlahiyyətləri və fəaliyyət istiqamətləri həm rezidentlər, həm də sənədlər şəklində ifadə olunub. Birinci növbədə bu, insanların təhlükəsizliyinin yaradılmasına xidmət edir".

Onun sözlərinə görə, bütün bunları nəzərə alsaq, BMT hazırda rəsmi Kiyevə əsasən humanitar məsələlərdə yardım edə bilər.

**Sabir Məmmədli isə diqqətə çatdırıb ki, Rusiya Ukraynaya hücum etməklə dünya birliyini çox çətin vəziyyətə qoyub:**

"Düşünün, özü BMT strukturlarında təmsil olunan, burda veto hüququna malik olan dövlət özü başqa bir ölkəyə hücum edir. BMT sülhməramlılarının hər hansısa bir ölkədə yerləşdirilməsinə ilk növbədə BMT Təhlükəsizlik Şurası qərar verir. Rusiya da quruma üzvdür. Bu mənada onun bu sülhməramlıların Ukrayna ərazisində yerləşdirilməsinə razılıq verməsi bir qədər çətin görünür. Son günlərin hadisələri, Putinin inadkar açıqlamaları onun göstərir ki, Rusiya Ukraynadakı məqsədlərindən əl çəkmək niyyətində deyil. Bəlkə bir müddətdən sonra rəsmi Moskva öz tələblərində bir qədər yumşaqlıq yaradar. Amma indi belə görünmür".

*Professorun fikrincə, indi Rusiya gözləmədiyi bir müqavimətlə qarşılaşıb və Putin bundan müəyyən nəticələr çıxarsa, BMT sülhməramlı qüvvələrinin Ukraynada yerləşdirilməsinə razılıq verə bilər:*

"Hazırda dünya birliyi Rusiyanın BMT Təhlükəsizlik Şurasının üzvlüyündən çıxarmaq məsələsini qaldırmaq istəyir. Belə olduqda BMT-nin Nizamnaməsində də müəyyən dəyişikliklər edilməlidir. Bu isə çətin və qısa müddətdə həlli mümkün olmayan məsələdir".

**Günəş Mərd**

**"Ukrayna - Rusiya müharibəsində əsas günahkar ABŞ-dır". Bu sözləri "Şərq"ə açıqlamasında Milli Məclisin sabiq sədri, professor Yaqub Məmmədov deyib. Eks spiker bildirib ki, NATO Rusiyanın qərb sərhədlərinə yaxınlaşmamalıydı. Bununla bağlı Rusiya Prezidenti Vladimir Putin neçə dəfə Amerikaya xəbərdarlıq etdi: "Rusiya Qərb üçün deyil, Qərb Moskva üçün təhlükə yaradırdı. Bu, Qərb-Rusiya qarşıdurmasıdır və indiki məsələdə haqq-ədalət Rusiyanın tərəfindədir.**

Əfsuslar olsun ki, burada ən böyük ziyanı Ukrayna xalqı, mülki adamlar görür. Müharibə uzanacaq. Ukrayna balaca dövlət deyil, ukraynalılar mübariz xalqdır. Kaş müharibə olmayaydı, iki qardaş xalqı, slavyan millətlərini bir-birinə qırdırırlar. Tarix boyu birlikdə yaşamış xalqları bir-birinə düşmən edən ABŞ-dır. Siyasətçilərin oyunbazlığı, hegemonluq davası xalqları qarşı-qarşıya qoyur.



# "Haqq-ədalət Rusiyanın tərəfindədir"

## Yaqub Məmmədov: "Nə istəyirsən, Amerika? Sakit otur yerində, ölkələri bir-biri ilə üz-üzə qoyma"

Prosesləri, insan itkilərini ürək ağrısı ilə izləyirik. Gözəl bir ölkə dağılır, şəhərləri viran olur, mülki insanlar qurbana çevrilir. Qərb bunu istəyirdi?".

**Y.Məmmədov vurğulayıb ki, Amerika Rusiya rəhbərliyini qıcıqlandırmasaydı, müharibə başlamazdı:** "Moskvanın yeganə tələbi o idi ki, NATO Ukraynaya, Rusiyanın qərb sərhədlərinə gəlməsin, qoşun yığmasın. Əgər özü savaşa girmirsə, Ukraynaya yardım göstərmirsə, hərbi blok hansı məqsədlə Rusiyanın qərb sərhədlərinə gəlirdi?! Qərb öz vədini dəfələrlə pozub, Polşaya, Rumıniyaya, Çexiyaya girib. Ukraynaya müdaxilə son hədd idi. Dünyada yüzlərlə ölkə var, hamısı NATO-ya, Avropa İttifaqına üzv olası deyil ki? Moskvanın Donetsk və Luqanskı "müstəqil dövlət" kimi tanıması da Qərbin təhriki ilə oldu. Zelenskinin də "tırkalayıb" Minsk razılaşmasından uzaqlaşdırdılar. Allah eləməsin, nüvə müharibəsi başlasa, dünyanın aqibəti necə olacaq, bunun hesabını kim verəcək? Ukraynaya fitva verirlər, hərbi texnika, xarici legionlar göndərirlər. Qərb əvvəl deyirdi ki, SSRİ şər ittifaqıdır, onu mütləq dağıtmaq lazımdır. İndi SSRİ yoxdur, amma ABŞ yenə də Rusiyadan əl çəkmir. Nə istəyirsən, Amerika? Sakit otur yerində, ölkələri bir-biri ilə üz-üzə qoyma. Belə çıxır ki, indi şər qüvvəsi ABŞ özüdür. Qərb Rusiyanı təxribata çəkdi, Kreml də səhv edərək təxribata getdi".

**Yaqub Məmmədov sanksiyaların Rusiyanı zəiflədəcəyinə inanmadığını deyib:** "Rusiya böyük dövlətdir, təbii sərvətləri çoxdur. İnanmıram ki, müharibə və sanksiyalar nəhəng bir ölkəni çökdürsün. Müəyyən problemlərin yaşanacağı qaçılmazdır, amma sadəcə iqtisadi sanksiyalarla Rusiyanı diz üstə çökdürmək mümkünsüzdür. Bilirsiz, digər millətlərdən fərqli olaraq rusların yaşayış üçün tələbləri çox deyil. Ruslar hər şeylə qane olan, yüksək rifah arxasınca getməyən xalqdır. Ona görə də sanksiyalara görə hökumətə etiraz etmirlər, əksinə, təzyiqlərə məruz qaldığı üçün dəstəkləyirlər".

**İsmayıl Qocayev**

# Məktəbləri yenə 8 Mart həyəcanı basıb

## Hər kəs bildiyini edir, əsas fiqur da valideynlərdir



**İllərdir, hər dəfə bayram ərəfəsində nazirlik müraciət edir, xəbərdarlıq edir, tövsiyə edir Etmədiyi nəsə qalmır, amma nə fayda?! Məktəblər öz bildiyini edir. Əsas fiqur da valideynlərdir.**

Hansı müəllim üçün nə qədər pul toplanmalıdır, pulun nə qədəri direktora, nə qədəri tədris hissə müdirinə, sinif müəlliminə, nə qədəri də sıravi - "fağır" müəllimə çatanacan, hesab-bölgü aparılır. Belə çıxır ki, pul toplama kampaniyasının qarşısını almaq mümkün deyil? Əsas günahı valideynlərdə görənlər az deyil. Pul verən valideyndirsə, deməli, əsas günahkar da odur. Valideynlərin arqumenti də var: pul verməyəndə uşağı gözümçıxdıya salırlar, uşaq başqalarından "seçilir", istəmirik başı aşağı olsun, övladımız. Nə deyəsən? Bir valideyn ki, övladının başı aşağı olmasını pulla ölçür, bu zehniyyət qarşısında deməyə söz qalmır. Problemin kökü çox dərindədir. Pul ödəyən valideyndir, lakin pul tələb edən də var axı. Tələb edən olmasa, pul da toplanmaz. Bu elə bir labirintdir ki, çıxışı tapmaq çox çətindir. Mümkünsüz deyil amma. Növbəti dəfə 8 Mart ərəfəsində Təhsil Nazirliyi pul toplanmasının yolverilməz olduğuna dair müraciətlə çıxış edib. O cümlədən Təhsil Nazirliyi yanında İctimai Şuradan "8 mart"la bağlı çağırış edilib. İctimai Şuranın sədri Günel Səfərova müraciəti sosial şəbəkədə paylaşıb.

Müraciətdə məktəblərdə şagird və valideynlərdən hər hansı bir vəsaitin toplanmasının yolverilməz olduğu qeyd edilir. Bildirilir ki, bayramla bağlı xoşagəlməz halların qarşısını almaq üçün

### "Məktəblinin Dostu" deyəsən, direktorun dostuna çevrilib

bu prosesə cəmiyyət olaraq hər birimiz nəzarət etməliyik. Həmçinin qeyd olunur ki, belə hallarla qarşılaşanlar tnictimaishura@gmail.com elektron poçt ünvanına müraciət edə bilər. "Unutmayaq ki, müəllimə hörmət valideynin öz övladının təlim-tərbiyə prosesinə həssas yanaşması, bu prosesdə onu hərtərəfli dəstəkləməsidir". Müraciət xanımların 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edilməsi ilə yekunlaşdırılır.

*Gözlənildiyi kimi məlum müraciətə rəylər də özünü çox gözlətməyib. Bəzisini təqdim edirik:*

**Zülfiyyə Nuriyeva:** Diyosunuz

**Gunel Səfərova:** dedik

**Nailə İsmayılova:** Heç kəs də müraciət etməyəcək. Çünki valideynlər uşaqlarına görə narahat olurlar. Siz məktəb direktorlarının necə qisasçı olduqlarını bilmirsiniz. Hamısına şamil olunmur təbii ki...

**Gunel Səfərova:** Nailə İsmayılova, 55 dəqiqəyə müraciətlər gəlib. İşi doğru qurmaqdan asılıdır hər şey.

**Zahir Məmmədov:** Bütün qruplarda paylaşdım, hər kəs görsün, problemi olan varsa müraciət etsin.

**Şəbnəm Uğurlu Cəbrayıl:** Nənəm - Qabaqcıl Maarif işçisi Şəfiqə Baxışova 40 ilə yaxın müəllim və məktəb direktoru kimi çalışıb. Həmişə 8 Martda sumkasında kiçik hədiyyələrlə gedərdi məktəbə. Onunla bir məktəbdə çalışma şansı olan dayım qızı soruşduğunda, deyib ki, şagirdlərdən güldən başqa heç nə götürmürəm, bunları çantama ona görə qoyuram ki, mənə gül dəstəsi verən uşağın əlini boş qaytarmayım...

**Aybəniz İsmayılova:** Nənələrimiz!..

**Fərhad Abdulov:** Gecikmisiniz, artıq 1-ci sinfi bitirəcəyinə görə direktor üçün yığılan məbləğlərin, 1-ci sinifi bitirmələri ilə əlaqədar keçiriləcək tədbir xərclərinin anonsu verilib. Təşəbbüs təqdirəlayiqdir, lakin nəzərə alınmalıdır ki, müraciət edənlərin qarşısını fərqli məqamlar kəsir. Böyük ehtimal bu kimi vəziyyətlərin qarşısını almaq üçün alternativ yollar da düşünülür. "Məktəblinin Dostu" isə deyəsən, direktorun dostuna çevrilib.

**Tural Səfərli:** Açığı, heç bir müəllim kiməsə məcburi pul yığdırmır. Qaldı ki hansısa valideyn könüllü müəllimə bir hədiyyə verirsə, bunun qarşısını kəsmək lazımdı???

**Fatimə Şirinova Hüseynova:** Günel xanım, o poçta filan əziyyət verməyin, sabah məktəblərin çoxunda iş günüdür, sadəcə qarşısına gedib vəziyyətə baxın, vəssalam.

**Vəfa Aslan:** Həmçinin bir sinfin "whatsapp" qrupuna baxmaq olar.

**Leyla Məmmədli:** - Sadıqzadə: Ümumiyyətlə, müəllimə çiçəkdən başqa hədiyyə verilməli deyil. Məsələn, əksər özəl məktəblərdə qanunla qadağandır belə hallar. Ümid edirik ki, dövlət məktəblərində də ləğv olunar.

**Gülşən Kərimova:** Müraciət edən şəxs gizli saxlanılmır, üstəlik, bütün sinifdə biabır edəcək duruma gətirib çıxarırlar. İndi deyin görüm, kim ifşa edər? Dediklərinə bax, bir də etdiklərinə.

**Shahbaz Xuduoglu:** Hədiyyə məsələsi biryolluq qadağan olunmalıdır. Şagird müəllimə niyə hədiyyə etməlidir? Məsələni qəti qoymaq lazımdır.

*Vəziyyət bu cürdür, bu il üçün. Gələn il necə olacaq? Yaşayarıq, görərik.*

**Məlahət Rzayeva**

**Mart ayının 3-də Medianın İnkişafı Agentliyində çap mediası məhsullarının yayım şirkətlərinin rəhbərləri ilə görüş keçirilib. Agentliyin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, görüşün əsas məqsədi çap mediası məhsullarının yayım sahəsindəki mövcud vəziyyətinin təhlili, yayım prosesinin səmərəliliyinin artırılmasıdır.**

Həmçinin, bu sahəyə dair mövcud normativ hüquqi aktların müddəalarının şərh edilməsidir. Görüşdə Bakı şəhəri ilə yanaşı rayonlarda da yayım işinin təkmilləşdirilməsinə ehtiyac olduğu vurğulanıb. Halbuki, görüş 1 saat planlaşdırılmışdı. Yayımla bağlı bütün problemləri, çatışmazlıqları dilə gətirdik, təkliflərimiz dinlənildi. Yayım firması mətbuatın önəmli tərkib hissəsidir, bir-biri ilə bağlı sahələrdir. Biri olmasa, digəri də olmayacaq. Nəşr olunan qəzetləri insanlar



# "Görüşdən çox razı qaldıq"

## Xanhüseyn Əliyev: "Çap mediasının yayımı ilə bağlı bütün problemlərimizi, təkliflərimizi səsləndirdik"

Sonda görüş iştirakçılarının çap mediası məhsullarının abunə və satışının daha səmərəli təşkili istiqamətində təklifləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

**Görüşlə bağlı "Şərq"ə danışan "Qaya" mətbuat yayımı firmasının sədri Xanhüseyn Əliyev deyib ki, bu, MEDİA ilə yayım şirkətlərinin rəhbərləri arasında ilk görüş idi. Onun sözlərinə görə, müzakirələr səmərəli keçib:** "Görüş yüksək səviyyədə təşkil olunmuşdu. Təxminən 2,5 saat ərzində müzakirələr aparan arasında yaymaq, oxuculara çatdırmaq üçün yayım şirkətlərinin fəaliyyəti zəruridir. Agentlik bunu gözəl başa düşür. Əsas problemlərimizdən biri daşınma xərclərinin artmasıdır. Bu, bizim üçün çətinlik yaradır. Həm də yeganə gəlir mənbəyimiz yerli qəzetlərdəndir. Xarici qəzetlərin ƏDV-si yüksəkdir. Qəzetlərin regionlara çatdırılması təkcə Bakıda deyil, digər şəhərlərə daşınması məsələsini də gündəmə gətirdik. Daşınması baha başa gəldiyi üçün rayonlara qəzet apara bilmirik. Agentliyin rəhbəri Əhməd İsmayılov daşınma və digər problemlərlə bağlı müvafiq qurumlarla müzakirə aparacağını dedi. Yayım firmalarını narahat edən bir çox məsələ barədə ətraflı danışdıq. Əhməd müəllimdən çox razı qaldıq".

**X.Əliyev vurğulayıb ki, Bakıda qəzet köşklərinin sayı azdır:** "Köşklərin sayını artırmağa ehtiyac var. Təzə köşklərin sayı 240-dır. Bizim isə paytaxtda 13 köşkümüz var. Müzakirə olundu ki, köşklərlə bağlı monitorinq aparılsın və qəzetlərin məntəqələrdə satışı ilə bağlı nəzarət gücləndirilsin. Görüşlərin davam edəcəyini, hətta növbəti toplantının baş redaktorlar və yayım firmalarının rəhbərləri ilə birlikdə olacağını söylədilər".

**İsmayıl**

**Avropa İttifaqı (Aİ) Ukraynadakı savaşla əlaqədar Rusiyadan enerji daşıyıcılarının idxalının dayandırılmasını istisna etmir.**

Bunun Aİ-nin xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borel deyib.

Onun sözlərinə görə, bütün variantlar nəzərdən keçirilir: "Siz gördünüz ki, bütün sanksiyalar masanın üstündə idi. Heç kimin qəbul olunacağını gözləmədiyi tədbirlər qəbul edildi. Biz Rusiya iqtisadiyyatına güclü zərər vuracaq maliyyə, siyasi və iqtisadi sanksiyaları qəbul etdik. Biz Ukraynanın müdafiə hüququnu dəstəkləyirik".

J.Borel Aİ-nin Rusiyadan karbohidrogen və qaz tədarükünün dayandırılması perspektivi haqqında suala cavab olaraq deyib:

"Rusiyanın Qərbə qarşı əlində tutduğu ən önəmli kartlarından biri də Avropa ilə arasındakı qaz ticarətidir. Moskva dəfələrlə bu məsələ ilə bağlı Avropanı təhdid edib. İndi isə vəziyyət tam əksinədir. Qərb Rusiyanı qaz idxalını dayandırmaqla hədələyir".

Aİ-nin birdən-birə bu addımı atmasını "Şərq"ə dəyərləndirən iqtisadçı Xalid Kərimli Aİ-nin Rusiyadan qaz idxalını dayandıra biləcəyini güman etmədiyini bildirib.

"Bunu etmək üçün Avropa Birliyinin alternativi olmalıdır. Rusiya Avropanın qaz ehtiyacının 41 faizini qarşılayır. Hazırda dünyada bu həcmdə qazı sürətlə

# Avropa rus qazının qoxusundan qaça bilməz

## Xalid Kərimli: "Əgər qazın idxalı bu formada dayandırılsa, ən çox Avropa iqtisadiyyatı əziyyət çəkəcək"



əvəzləyə biləcək imkanlar yoxdur. Ona görə də Avropanın Rusiyanın qazından imtina etməsi yaxın gələcəkdə mümkün görünmür. Çünki qaz təkcə isitmədə istifadə olunur. Sənayedə də istifadə olunur və neft-kimya sənayesində böyük əhəmiyyəti var. Alternativ mənbənin olmadığı, boru xətlərinin çəkilmədiyi vaxtda bunu elan etmək ağılabatan deyil. Bu, sadəcə, müvəqqəti təzyiq imkanları kimi nəzərdən keçirilə bilər. Ola bilsin ki, Avropanın bir neçə aylıq qaz ehtiyatı var. Bu zaman bir müddət qaz almayacaqlarını deyə bilərlər. Ancaq ümumilikdə qaz idxalını dayandırmaq mümkün deyil.

Qərbin belə bir addım atacağı təqdirdə bunun Rusiya iqtisadiyyatına təsiri barədə danışan iqtisadçı bildirib ki, əgər qaz ticarəti dayandırılsa, Rusiya iqtisadiyyatında da ümumi daxili məhsul 3 faiz (ÜDM) düşə bilər:

"Ancaq bu, Avropa və ümumilikdə dünya iqtisadiyyatına da təsir edəcək. Əgər qazın idxalı bu formada dayandırılsa, ən çox Avropa iqtisadiyyatı əziyyət çəkəcək. Əlavə olaraq, bu, Avropada qazın alış qiymətlərinin kəskin bahalaşmasına gətirib çıxaracaq. Bu da sonda qlobal inflyasiyanı daha da artıra bilər".

**Sənan İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**



# Azərbaycan BMT-yə çətin günlərdə üzv qəbul olunub

## Rəsmi Bakı beynəlxalq təşkilatla əməkdaşlıq istəyini bu gün də təsdiqləyir

**Martın 2-də Azərbaycan Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv olmasının 30 illiyini qeyd etdi. 1992-ci ilin 2 mart tarixində Azərbaycanı və digər səkkiz keçmiş sovet respublikası BMT-yə yeni üzv kimi qəbul olunub. O zaman yeni müstəqil dövlət olaraq Azərbaycan 1990-cı illərin əvvəllərində baş verən münaqişə üzündən ağır çətinliklərlə üzləşmişdi.**

Məhz bu səbəbdən BMT ilə Azərbaycan arasında tərəfdaşlığın ilk illərində BMT-nin yardımı əsasən qaçqınların və məcburi köçkünlərin təcili ehtiyaclarını qarşılamaqdan ibarət idi. BMT-nin ixtisaslaşmış agentlikləri 600 000-dən çox məcburi köçkünü və 200 000 qaçqını qida, səhiyyə xidmətləri, sığınacaq və digər qeyri-ərzaq məhsulları ilə təmin etmişdi. Hökumətin, yerli icmaların və beynəlxalq tərəfdaşların birgə səyləri genişmiqyaslı yerdəyişmənin kütləvi aclıq və epidemiyalar kimi ən faciəvi nəticələrinin qarşısının alınmasında mühüm rol oynayıb. Növbəti illərdə isə BMT-nin dəstəyi münaqişədən sonrakı bərpa prosesləri və uzunmüddətli inkişaf ehtiyacları istiqamətində olub. Nisbətən qısa müddət ərzində Azərbaycan keçid iqtisadiyyatından yüksək insan inkişafı indeksinə malik yüksək orta gəlirli ölkəyə çevrilib. Son 30 ildə Azərbaycan iqtisadi artım və insan inkişafı baxımından nəzərəçarpacaq irəliləyiş əldə edib. BMT-Azərbaycan münasibətləri isə yardıma əsaslanan əməkdaşlıqdan tərəfdaşlığa əsaslanan əməkdaşlığa çevrilib. BMT-yə üzv olduqdan sonra Azərbaycan dayanıqlı inkişafa dair müştərək öhdəliyimizə öz töhfəsini verməklə bərabər, BMT Nizamnaməsində təsbit olunmuş prinsip və məqsədlərə uyğun olaraq hərtərəfli və geniş əhatəli gündəlikdə fəal iştirakını davam etdirib. Bu səylər qlobal səviyyədə də tanınıb və qəbul olunub - 155 üzv dövlət Azərbaycanın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə səs verib.

COVID-19 pandemiyası dövründə Azərbaycan bir daha çoxtərəfliliyə sadiqliyini nümayiş etdirərək, məsuliyyətli tərəfdaş qismində pandemiya ilə mübarizə üzrə regional və qlobal səylərə töhfə verib. Qoşulmama Hərəkatının sədri kimi, Azərbaycan BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etməklə bərabər, COVID-19-a qarşı qlobal təşəbbüslərə maliyyə dəstəyini ayırıb. Bundan əlavə, zəngin multikulturalizm və dini tolerantlıq ənənələrinə malik Azərbaycan son illərdə bir sıra yüksək səviyyəli tədbirlərə ev sahibliyi etməklə müxtəlif millətlər və xalqlar arasında mədəniyyətlərarası dialoqun və anlaşmanın genişləndirilməsi rolunu öz üzərinə götürüb. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq, münaqişədən sonra bərpa prosesi çərçivəsində səylərini dəstəkləməyə davam etməkdədir.

2021-ci ildə BMT-nin ölkə üzrə idarə heyəti və Azərbaycan Hökuməti 2021-2025-ci illər üçün BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə (UNSDCF) sənədini imzalayıblar. Çərçivə sənədi tərəfdaşlıq üçün dörd prioritet sahəni müəyyən edir: həssaslığı azaldan və dayanıqlığı təmin edən inklüziv artım; dövlət və sosial xidmətlərin daha yaxşı göstərilməsi üçün daha güclü institutlar; ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə və qadın və qızların səlahiyyətlərini artıran və gender bərabərliyinə əsaslanan cəmiyyət. Bunların hər biri çox iddialı hədəfdir və onlara çatmaq üçün daha qətiyyətli tədbirlər və cəmiyyətin bütün təbəqələrinin səfərbərliyi tələb olunur.

Bu günlərdə BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif Ağdam Şəhidlər Xiyabanını ziyarət edib. BMT nümayəndəsi və onunla birgə olan şəxslər Ağdam ”Cümə” məscidində, Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olublar. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov icraçı direktoruna Ağdamda Azərbaycan hökumətinin şəhərsalma üzrə aparıldığı yenidənqurma işləri ilə bağlı məlumat verib. Qeyd edək ki, Maimuna Mohd Şərif ölkədə inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı şəhər inkişafını təşviq etmək, habelə təmsil etdiyi BMT agentliyi ilə əlaqələri möhkəmləndirmək üçün Azərbaycana səfər edib. Onun səfəri ənənəvi idman növlərinin dirçəldilməsinə həsr olunmuş 5-ci Etnosport Forumuna təsadüf edir.

**Politoloq Sədrəddin Soltan deyib ki, nizamnaməsinə və üzvlərinin sayına görə BMT dünyanın ən böyük təşkilatıdır. Hazırda təşkilatın 193 üzvü var. Onun əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. Onun sözlərinə görə, BMT-yə ”dünya hökuməti” də deyirlər. Bu təşkilat nizamnamə və qəbul etdiyi sənədlərə əsasən həm də beynəlxalq hüququn qorunmasına yardım edir:**
”Azərbaycan müstəqilliyini bərpa etdikdən təxminən üç ay sonra, 1992-ci il martın 2-də bu nüfuzlu təşkilata üzv qəbul olunub. BMT-nin Nyu-Yorkdakı qərargahının qarşısında Azərbaycanın dövlət bayrağı qaldırılıb, mayın 6-dan isə təşkilat yanında ölkəmizin daimi nümayəndəliyi fəaliyyətə başlayıb. Azərbaycan BMT-yə çox çətin günlərində üzv qəbul olunub. Ermənistanın təcavüzünün qarşısının bu təşkilatın yardımı ilə alınacağına ümid çox idi. 1993-cü ilin aprel, iyul, oktyabr və noyabr aylarında təşkilatın Təhlükəsizlik Şurası Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasına dair 4 qətnamə qəbul etmişdi. Ancaq bu sənədlərə Ermənistan 27 il əhəmiyyətsiz bir sənəd kimi yanaşdı. BMT Azərbaycana münasibətdə 27 il nizamnaməsinin əsas prinsiplərindən birini - dövlətlərin ərazi bütövlüyünü gerçəkləşdirə bilmədi. Təcavüzkar Ermənistana qarşı bir cümləlik sanksiya belə tətbiq edilmədi. Bundan şirniklənən işğalçı yeni ərazilər ələ keçirmək iddiasına düşdü. Ermənistan davamlı olaraq Azərbaycan Silahlı Qüvvələrinin mövqeyini atəşə tutdu, dövlət sərhədini pozdu. BMT və başqa beynəlxalq təşkilatların fəaliyyətsizliyi Azərbaycanı öz ərazi bütövlüyünü əks-həmlə əməliyyatı ilə bərpa etməsinə şərait yaratdı. 2020-ci il sentyabrın 27-də Azərbaycan torpaqlarını işğalçı Ermənistandan azad etməsi istiqamətində əməliyyat keçirməyə başladı. 44 gün sürən müharibə Azərbaycan torpaqlarının Ermənistanın işğalından təmizlənməsi ilə başa çatdı. Bundan sonra Cənubi Qafqazda yeni şərait yarandı. Azərbaycanın apardığı ədalətli müharibə BMT-nin 27 il məhəl qoyulmayan qətnamələrinin tələblərini həyata keçirdi. 30 ilə yaxın tapdanan beynəlxalq hüquqa hörməti Azərbaycan yada saldı”.

**Ekspert xatırladıb ki, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü var: ABŞ, Böyük Britaniya, Fransa, Çin və Rusiya:**
”Bu dövlətlər 27 il məlum qətnamələrin dinc yolla reallaşmasına cəhd belə etməməklə özlərinə olan etibarın azalmasına rəvac verdilər. Şura üzvlərinin BMT nizamnaməsinə və qəbul etdikləri qətnamələrə hörmətsizliyi sonrakı illərdə keçmiş sovet respublikaları ərazisində yeni fəsadlara yol açdı. 2008-ci ilin avqustunda Gürcüstanda baş vermiş, 2014-cü ildə başlayıb və 2022-ci ilin fevralında bərpa olunan Ukrayna müharibəsi buna sübutdur. Azərbaycan torpaqlarını işğaldan azad etməklə BMT-nin itən və gözdən düşən nüfuzunu qaldıra bildi. Azərbaycan 30 il ərzində təşkilatın sülhməramlı, humanitar layihələrinə qatılır. Bu, rəsmi Bakının BMT ilə əməkdaşlıq etmək istəyini bir daha təsdiqləyir”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Məhsəti Gəncəvi fars yox, türk şairidir"

## “Vikipediya”dakı səhv düzəldildi

**Bütün dünyada onlayn ensiklopediya platforması kimi fəaliyyət göstərən ”Vikipediya” özündə müxtəlif məlumat və faktları cəmləşdirir. Bu baxımdan, getdikcə rəqəmsallaşan dünyada bu platformadan istifadə günü-gündən genişlənir. Bu gün dünyada internetə çıxışı olan hər həs ”Vikipediya”dan istənilən məlumatı oxuya və ya məqalə yarada bilər. 2004-cü ildən etibarən Azərbaycanda fəaliyyət göstərən platforma ölkədə və dünyada yarandığı gündən internetin ən böyük mənbə və məlumat bazasıdır.**

Lakin bütün müsbət cəhətlərlə yanaşı, bu platformada paylaşılan yanlış məlumatlara da rast gəlmək mümkündür. Belə məlumatlardan biri Azərbaycan ədəbiyyatında xüsusi yeri və dəyəri olan Məhsəti Gəncəvi haqqındadır. İlk məşhur Azərbaycan şairəsi kimi ədəbiyyat tariximizdə yer alan Məhsəti Gəncəvi ”Vikipediya”da fars şair kimi təqdim olunub.

**Sözügedən məsələ ilə bağlı ”Şərq”ə danışan ”Vikipediya” üzrə mütəxəssis, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk bildirib ki, adıçəkilən məqalədə artıq düzəliş olunub:**

”Vikipediya”da məqalələr mənbələr əsasında yaradılır. Hər bir fikrin sonunda mütləq mənbə göstərilməlidir. Həmin mənbə arxivləşdirilir. Üstəlik, ”Vikipediya” bizə yanlışları düzəltməyə imkan verir. ”Vikipediya” həm də sərbəst ensiklopedik plaftorma olduğu üçün hər kəs qaydalar çərçivəsində öz töhfəsini verə bilər. Bunlar ”Vikipediya”nın bizə verdiyi üstünlüklərdir.

Azərbaycanın böyük şairəsi Məhsəti Gəncəvinin fars şairi kimi təqdim edilməsi ilə bağlı paylaşımları görmüşəm. Məqalədə düzəliş olunub. Onun Azərbaycan türkü olduğu yazılıb”.

*E.Eltürk hesab edir ki, mütəxəssislərin xarici müəlliflərlə birgə araşdırmalar aparması daha effektiv olur:*

”Məncə, burada şairənin yaradıcılığının hansı dildə yazması əsas götürülüb. Çünki Məhsəti Gəncəvinin doğma dilimizdə əsərləri olmadığı üçün bu amil onun hansı millətə mənsubluğu ilə bağlı xarici mütəxəssislər arasında da fikir ayrılığı yaradır. Təbii ki, Məhsəti Gəncəvi Azərbaycan türküdür və qədim Gəncədə yaşayıb-yaradıb. Bunun özü ciddi faktdır. O zaman oranın yerli əhalisi türklər olublar. ”Vikipediya” könüllüləri, idarəçilər mənbələrlə işləyirlər. Ortada ciddi, əsaslandırılmış və elmi mənbələr olduqdan sonra bu cür fikirlər irəli sürülə bilməz. Bu məsələdə filoloqlarımız, əsasən şairənin yaradıcılığını araşdıran mütəxəssislər xarici müəlliflərlə birgə araşdırmalar aparsalar, iş daha effektiv olur.

Əsas odur ki, bu istiqaməti akademik və elmi əsaslarla ortaya qoymaq lazımdır. Bu fakt ”Vikipediya”nın xarici dil bölmələrinə aiddir. Mənbələr nə qədər çox etibarlı olarsa, könüllülərin işləmək imkanları artar”.

**Çimnaz Şahlar**

# Rusiya alternativ mediaya hücum edir

## Azər Həsrət: “Hökumət ümumiyyətlə müharibə ilə bağlı bütün yayımların qarşısını alır”

**Ukraynanın işğal planını genişləndirən Rusiya ölkədə alternativ informasiya mənbələrini sıradan çıxarır, yayımına qadağa qoyur.Bu günlərdə daha bir neçə media qurumunun fəaliyyəti dayandırılması barədə qərar verilib.**

Bu barədə Rusiya Rabitə, İnformasiya Texnologiyaları və Kütləvi Rabitələrə Nəzarət Federal Xidməti (”Roskomnadzor”) məlumat yayıb.

Bildirilib ki, ”Meduza”, ”Azadlıq Radiosu”, ”Amerikanın Səsi” və BBC-nin Rusiya xidmətinə giriş məhdudlaşdırılıb.

Bununla yanaşı Rusiyada müharibə ilə bağlı yayılan və yalan hesab edilən xəbərlərə qarşı sərt cəzaların müəyyən edildiyi qanun layihəsi qəbul olunub.

Dövlət Duması üçüncü oxunuşda Rusiya Ordusunu nüfuzdan salmağa yönələn feyk xəbərlərə və Rusiyaya qarşı sanksiyalara çağırışlara görə həbs cəzası və böyük cərimələr nəzərdə tutan qanun layihəsini qəbul edib.

Qanun layihəsi Dumanın bu gün keçirilən plenar iclasında qəbul olunub.

Qanuna əsasən, Rusiya Federasiyanın Cinayət və Cinayət Prosessual məcəllələrinə dəyişikliklər edilir.

Sənəddə qeyd edilir ki, əgər feyklər ağır nəticələrə səbəb olarsa, azadlıqdan məhrumetmə müddəti 15 ilə qədər ola bilər.



**Rusiya hökumətinin mediaya qarşı sərt tədbirlər görməsi və informasiya azadlığını əhəmiyyətli dərəcədə məhdudlaşdırması barədə ”Şərq”ə danışan tanınmış jurnalist Azər Həsrətin sözlərinə görə, Rusiya öz ordusunun Ukraynada düşdüyü rüsvayedici vəziyyəti xalqından gizlətməyə cəhd edir.**

”Rusiya-Ukrayna münasibətləri fonunda baş verənlər bütün dünyanın, eləcə də Azərbaycanın diqqət mərkəzindədir. Müharibə aparan ölkənin mediaya müəyyən məhdudiyyətlər tətbiq etməsi başadüşüləndir. Bəzən media çaşdırıcı informasiyaları, hərbi sirləri də yaya bilir. Buna görə də bütün ölkələr müharibə apararkən müəyyən məhdudiyyətlər tətbiq edirlər. Lakin Rusiyada media ilə bağlı baş verənlər bu qəbildən deyil. Çünki hökumət ümumiyyətlə müharibə ilə bağlı bütün yayımların qarşısını alır. Yəni heç kim dövlətin məqbul saymadığı informasiyanı yaymamalıdır. Alternativ informasiyaya dözümsüzlük nümayiş etdirilir. Ona görə də xarici və milli media qurumlarının fəaliyyəti rəsmən yasaqlanıb. Hətta bir sıra tanınmış media qurumları fəaliyyətlərini dayandırmalı olublar. Onlar bu məhdudiyyətlərə dirənə bilmədiklərinə görə işlərini dayandırdıqlarını elan ediblər. Çünki alternativ informasiya vermək istəyirlər. Rusiya dövləti isə bunu cinayət hesab edir və cəza ilə hədələyir.

Bütün bunlar onu göstərir ki, Rusiya dövlətinin məqsədi sadəcə müharibə ilə bağlı informasiya siyasətini tənzimləmək deyil. Rusiya bu addımı atmaqla bütün dünyanın bildiyini öz əhalisindən gizlətməyə çalışır. Ona görə ki Rusiya Ukraynada həqiqətən çox biabırçı durumla üzləşib. Çoxlu sayda itkiləri var. Biz bunları digər kanallardan görürük. Bu həqiqətləri Rusiya xalqının bilməməsi üçün mediaya total hücum tətbiq edilir”.

**Sənan İsmayıl**

# Hər yerə məktub yazıblar

## Bakının ortasında qovaq ağacı sakinlər üçün real təhlükə yaradır

**Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 1. ünvandakı evin qarşısında 2 ədəd qovaq ağacı sakinlər üçün real təhlükə yaradır. Bu barədə həmin ünvanda yaşayan sakin Behbud Quliyev ”Şərq”ə telefon açaraq bildirib. B.Quliyev deyib ki, demək olar həyətin ortasında, köhnə tikili olan evin damına bitişik boy atmış qovaq ağacları uzun müddətdir ki, quruyub və hazırda ortadan ikiyə bölünmüş haldadır.**

Ağaclar kökündən getdikcə aralandığından evin damına və divarlara basqı edir, nəticədə divarlarda əmələ gələn çatlar getdikcə genişlənir. Sakin vəziyyətlə bağlı dəfələrlə əlaqədar qurumlara məktubla müraciət etdiklərini də deyib. Bildirib ki, Yasamal Rayon İcra Hakimiyyətinə ünvanladığı məktub Bakı Şəhər İcra Hakimiyyəti Yaşıllaşdırma Birliyinə göndərilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyi daxil olmuş müraciət əsasında yerində baxış keçirib. Ekspertizanın rəyi bu olub ki, ağaclar budanaraq təhlükəsiz hala gətirilməlidir. Agentliyin rəyinin surəti Yaşıllaşdırma İdarəsinə və vətəndaşa da göndərilib. Lakin problem həllini tapmır. Ağaclar təhlükə mənbəyi olaraq qalır. Aidiyyəti qurum budanma işiylə məşğul olmur. B.Quliyev redaksiyaya telefon zəngində ”gözləyirlər ki, ağaclar kiminsə başına düşsün, evi uçursun, sonra gəlib budasınlar?!”, deyərək narazılığını bildirdi.



*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova ”Şərq”ə açıqlamasında bildirdi ki, məsələ ilə bağlı nazirliyin Dövlət Ekoloji Ekspertiza Agentliyinə məlumat veriləcək, problem yerində həll ediləcək.*

**Məlahət**

# Məktəbli intiharlarının sayı artır

## Əfsanə Rüstəmova: “Məktəb psixoloqunun iş saatı böyük auditoriya ilə işləməyə imkan vermir”



**Xaçmaz rayonunda intihar hadisəsi baş verib. Mətbuatın xəbərlərinə görə, hadisə martın 2-də Xudat şəhərində qeydə alınıb. Şəhər sakini 16 yaşlı məktəbli V.M. yaşadığı evin həyətindəki yardımçı tikilidə özünü asıb. İlkin məlumata görə, hadisə ailə münaqişəsi zəminində baş verib.**

Faktla bağlı araşdırma aparılır.

Qeyd edək ki, məktəblilərin intiharına tez-tez rast gəlinir. Onların özünə qəsdinin müxtəlif səbəbləri barədə psixoloqlar çoxsaylı ehtimallar irəli sürür. Məktəblilərin erkən yaşda yaşadıqları stress, depressiya, maddi sıxıntı və ağır hadisələr ölümlə nəticələnir. Valideyn, müəllim, dost-tanış, ətrafında bu istiqamətdə təsirləri bu nəticəni göstərir. Anaata savadsızlıqdan və ya işləmə səbəbindən vaxt darlığından övladlarına düzgün şəkildə kömək olmur. Müəllimlər ya laqeyd olur, ya da öz sahələri olmadığından şagirdlərə düzgün istiqamət verə bilmirlər. Mühit isə çox vaxt acımasız davranır. Buna görə də psixoloq dəstəyi mütləqdir. Lakin məktəbdə psixoloqlar ya tapılmır, tapılsa da, çoxu vəzifəsini icra edə bilmir.

**Psixoloq Əfsanə Rüstəmova ”Şərq”ə bildirdi ki, məktəb psixoloqlarının inkişafı üçün əlavə büdcəyə ehtiyac var:**

”Heç bir qrant ayrılmır. Hansısa kursa getsinlər deyə dövlət onları maliyyələşdirmir. Universiteti bitirirlər, birbaşa məktəbə gəlirlər. Məktəb psixoloqları adətən belə deyirlər: ”Bu gün uşaqlarım xəstədir. Tez evə getməliyəm”, ”Ərim əsəbi olduğundan axşama qala bilmərəm”, ”Ayrıca uşaq götürə bilmirəm. Çünki məktəbdə 3 min şagird var” və s. Onlar problem həll etməkdən çox, danışmağı sevirlər”.

**Ə.Rüstəmova günahı təkcə məktəb psixoloqlarında görməməyi vurğulayıb:**

”Təəssüf ki, məktəb psixoloqunun öz şəxsi büdcəsi özünü inkişaf etdirməyə yetmir. Həmçinin də iş yükü çoxdur. Məktəblərdə min, 2 min, 3 min və s. şagird var. Müxtəlif yaş qrupundadırlar. Cəmi 1 psixoloq var. O həm yeniyetmənin, həm ibtidai sinifdə oxuyan azyaşlının, həm də keçid dövrünün psixologiyasını bilməlidir. Onun iş saatları böyük auditoriya ilə işləmək üçün uyğun gəlmir. Bu qədər uşaqla məktəbdəki 1 mütəxəssisin işləməsi effektiv deyil. Ona görə də hər yaş dövrü və sinif üçün psixoloq təyin olunmalıdır”.

**Psixoloq bu cür halların qarşısını almaq üçün hansı tədbirlərin görülməsini izah edib:**

”Məktəb psixoloqları situasiyalar üzərində işləmək üçün yetişdirilməyib. Azyaşlılarla kontakta girib problemlərini həll etmək üçün taktikaları yoxdur. Amma biz onlardan çox şey tələb edirik. Halbuki, dövlət və ya birbaşa Təhsil Nazirliyinə maraqlı gəlməlidir ki, məktəb psixoloqları daha funksional olsun. Onların həkim, psixiatr və nevroloq yanında köməkçi kimi, hansısa mərkəzdə müşahidəçi kimi işləməyinə şərait yaradılmalıdır. Bununla müəyyən məqamlarda daha sərrast ”atışlar” edə bilsinlər, son, qəti qərar verməyi, həll yönümlü düşünməyi bacarsınlar”.

**Cəmilə ƏZİM**

## “Azərbaycanfilm"in direktoru işdən çıxdı

Bu vəzifəyə Nazim Abbasov təyinat alıb



**”Azərbaycanfilm” kinostudiyasının direktoru Fariz Əhmədov vəzifəsindən ayrılıb.**

Bu barədə o, feysbukda yazıb.

F.Əhmədov işdən martın 1-də ayrıldığını bildirib. O, fəaliyyətini audiovizual layihələrin istehsalı sahəsində davam etdirəcəyini əlavə edib.

Həmçinin mədəniyyət naziri Anar Kərimovun əmri ilə kinostudiyaya yeni direktor təyin olunub. Bu vəzifəyə Nazim Abbasov təyinat alıb.

**Elan**

Şərifov Qüdrət Həsrət oğluna məxsus Quba rayonu, Quba şəhərində yerləşən 1.7 ha özəl torpaq sahəsinin JN 1031 nömrəli Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Sənaye Sığorta ASC-nin adında olan BB 542329 saylı blank itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


# Qadağalar ləğv olunmalıdır…

## Ölkədə vaksin də, dərman da, test də biznesdir



**Rusiyada koronavirus pandemiyası ilə bağlı kütləvi əyləncə, idman, muzey və teatrlara tətbiq edilən ”QR kod” tələbi, Türkiyədə isə tibbi maska məcburiyyəti ləğv edilib. İrlandiyada isə peyvend olunmuş turistlərdən PZR tələb olumayacaq.**

Azərbaycanda necə, bu qaydaların yumşaldılmasına ehtiyac varmı?

Millət vəkili Fazil Mustafa Sputnik Azərbaycan-a açıqlamasında bildirib ki, Azərbaycanda onsuz da səhiyyə sistemi bu gücü götürə bilmir, vətəndaşı normal müalicə edə bilmir, heç kəs qaydalara ciddi əməl etmir:

”Hər kəs öz evində müalicə alır, dərmanı özü alır. Kimsə gətirib ona dərman verir? Vətəndaşı süni şəkildə əziyyətə salmışıq. Bu qadağaları təcili götürmək lazımdır. Axı bunun nə mənası var? İnsanlar onsuz heç yerdə qaydalara ciddi əməl etmirlər. Ona görə formal şəkildə qadağaları qüvvədə saxlamağın mənası yoxdur”.

**Fazil Mustafa bildirir ki, vaksində müəyyən mənada gəlir var, ola bilsin ki, bəzi məmurların burdan qazancı var:**

”Testlərdə də böyük vəsaitlər var, özəl tibb müəssisələri bundan pul qazanırlar. Belə özəl tibb müəssisələrinin hər birinin arxasında bir məmur dayanır. Çox güman ki, qadağaların qüvvədə qalması buna görədir. Bir o qədər çox pul gəlirsə, niyə qadağalar ardan qalxsın? Keyfiyyətə gəlincə isə, tutarlı tədbirlər görülmür, keyfiyyətli müalicə yoxdur”.

**Yumşaldılmalar haqda danışan F.Mustafa bildirir ki, bu gün dünyada da proses gedir:**

”Müəyyən istiqamətlərdə hərəkətdə, uçuşlar zamanı karantin qaydalarını qoruyub saxlamaq lazımdır. Kimsə bilyard oynayacaq, ya tenis oynayacaq, qoy oynasın”.

Keyfiyyət məsələsinə gəlincə, Fazil Mustafa bildirir ki, vəziyyət çox acınacaqlıdır:

”Bizdə tibbdə keyfiyyət var, yoxsa dərmanların keyfiyyəti var? Monopoliya olduğu üçün keyfiyyətə baxan kimdir ki? Gətirilibsə, bundan isitfadə etməlisən. Çox şeyləri ordan-burdan alırıq, sonradan onun blasını çəkəcəyik. Keyfiyyət məsələsinə baxılsa rəqabət yaranar, rəqabət özü də keyfiyyəti tənzimləyir. Rəqabət olmayandan sonra, istənilən sahədə belə olacaq. Armaturda da belədir. Tikintidə keyfiyyət var? Tikilən binalaırn xeyli hissəsinin armaturun yoxlayın, həmin binalar sabah kiçik zəlzələyə dözə biləcək? Bütün bunları hüquqi sistemə salmasaq, onda vəziyyət daha ağır olacaq. Ölkədə vaksin, dərman, test də biznesdir. Ayrı-ayrı adamlar burada külli miqdarda pul qazanır”.



## Şəbnəm Seda Sayanın proqramında qonaq olub

Azərbaycanlı müğənni “Qadasın alaram” mahnısını səsləndirib

**Müğənni Şəbnəm Tovuzlu türkiyəli ifaçı Seda Sayanın ”Sabahın sultanı Seda Sayan” proqramında qonaq olub.**

Axşam.az xəbər verir ki, ”Star TV2də yayımlanan veriliş bu gün yayımlanıb. Şəbnəm proqramda ”Qadasın alaram” mahnısını səsləndirib.

”Qadasın alaram” Türkiyədə də sevilir” deyən Sedaya Şəbnəm ”Mahnını çox gözəl dinləyirlər, mən də gəldim ki, simamı da tanısınlar” cavabını verib.

Sayan daha sonra Şəbnəmin Azərbaycanda Sibel Cana bənzədilməsi məsələsinə toxunub:

”O, bəyaz qadındır, sən isə qaraşınsan”.

Müğənni ”Ola bilsin bəzi üz cizgilərimiz oxşasın, amma mən Şəbnəm Tovuzluyam” reaksiyasını verib.

# Yüksək peşəkarlıq sözünü deyir

## “Qobustan toplusu”nda maraqlı, oxumalı mövzular çoxdur

**”Qobustan” dərgisi haqqında universitetdə ilk dəfə Jurnalistikanın nəzəriyyəsi və praktikası fənnini bizə birinci kursda tədris edən professor Cahangir Məmmədlidən eşitdim. Müəllimimiz dedi ki, 1969-cu ildən Azərbaycanda belə bir dərgi-sənəd toplusu nəşr edilir, onu da qeyd etdi ki, sovet senzurası Azərbaycan incəsənəti barədə, ədəbiyyat, milli dilimiz və s. haqqında söhbət açan və çox populyar olan bu dərginin nəşrinə güclü təzyiq göstərmiş, amma onu dayandıra bilməyib. Bu nəşrin təsisçisi o zamanın gənc yazarı, milli dəyərlərimizə bağlı bir ədib olan Anar olub və bu günə qədər də onun təəssübünü çəkməkdədir. Bu söhbətdən sonra bu dərginin iki nömrəsini əldə etdim:**

2021-ci ilin payız və qış nömrələrini. Diqqətlə nəzər saldım. Gələcəyin bir jurnalisti kimi bu dərginin xarakterini, mövzu dünyasını öyrənmək istədim. İndi dərginin təsisçiləri belə təqdim olunur: Anar, ,,Qobustan”ın yaradıcı heyəti və Azərbaycan Yazıçılar Birliyi. Toplumun baş redaktoru Pərvindir. Dərginin 11 nəfərlik yazıçı və sənət adamından ibarət redaksiya heyəti var. Toplunun ”Payız sayı”nda çox maraqlı əsərlər təqdim olunub. Anarın ”Sənət yanğısı”, Pərvinin ”Dəyirmana ön söz”, Vahid Qazinin ”Uzaqdan görünən şəhər-Helsinqborq, İsveç-Şuşadan yaza bilməz” və s. Yazılar esse janrında olub çox duyğulu bir şəkildə oxucuya yönəlir.




Nömrədə akademik İsa Həbibbəylinin, yazıçı Mövlud Süleymanlının, toplunun əməkdaşlarının çeşidli yazıları yer alıb. ”Tələbə araşdırması”, ”Anım”, ”Söz gənclərdə”, ”Fotoqrafiya” və s. kimi rubrikalar xüsusi maraq doğurur.

Toplunun ”Qış sayı”nda da çox maraqlı mövzular var. Yenə də Anarın, Vahid Qazinin, Narıngül Nadirin, Aydanın, Pərvinin müxtəlif mövzulu yazıları maraqla oxunur.

Toplunu maraqlı edən bir neçə cəhət var: onun mövzuları bütövlükdə milliliyə xidmət edir, bu mövzuları qələmə alan hər bir müəllifin öz üslubu, peşəkarlıq keyfiyyəti var, hər bir yazı orijinallığı ilə seçilir və s.

Doğrusu, bu kiçik qeydlərimi toplunun iki sayından duyduğum təəssüratları qələmə almaqda əsas məqsədim bizim günlərimizdə print jurnalistikası ətrafında gedən mübarizə və mübahisələr oldu. Çoxları-jurnalist çoxluğu belə bir fikirdədir ki, informasiya texnologiyalarının yaratdığı yeni dünya interneti qabağa salır və print jurnalistikası aradan çıxmaq ərəfəsindədir. Amma mən ciddi peşəkar jurnalistlərimizin belə bir fikri ilə tam şərikəm ki, hər şey yüksək peşəkarlıqdan asılıdır. Print jurnalistikası-qəzet və jurnallar yeni medianın güclü rəqabətinə davam gətirmək üçün yüksək peşəkarlıq nümunəsi göstərməlidir. ”Qobustan” toplusu belə bir optimist qənaətə əsas verir. Mən tələbə dostlarımı bu toplunu oxumağa dəvət edirəm. Əminəm ki, uduzmazlar. Azərbaycanın sənət dünyasını hərtərəfli mövzularla oxucuya təqdim edən bu dərgi hər kəsin marağına səbəb olmaqdadır - 1969-cu ildən bu günə kimi!

**Xumar Babayeva,**
**Bakı Dövlət Universiteti,**
**Jurnalistika fakültəsinin**
**2-ci kurs tələbəsi**


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 552



# Futbol əfsanəsi İslam dinini qəbul etdi

**Niderland millisi və "Milan"ın əfsanəvi futbolçusu Klarens Zeedorf İslam dinini qəbul edib.**

"Qafqazinfo" xəbər verir ki, o, bu barədə İnstaqramda paylaşım edib.

"Müsəlman ailəsinə qoşulmağıma görə gələn təbrik mesajları üçün xüsusi təşəkkür edirəm. İslam dininə qoşulmaqdan çox şadam və məmnunam, xüsusən də mənə İslamın mənasını daha dərindən öyrədən sevimli Sofiyaya. Mən adımı dəyişməmişəm. Valideynlərim tərəfindən verilən Klarens Zeedorf adımı daşımağa davam edəcəyəm! Dünyadakı hər kəsə bütün sevgilərimi göndərirəm", - sabiq futbolçu bildirib.

*Qeyd edək ki, Zeedorf "Ayaks", "Real" və "Milan"la Çempionlar Liqasının qalibi olub. O, 3 fərqli klubla bu turniri qazanan yeganə futbolçudur. 45 yaşlı futbolçu 2013-cü ildə futbolçu karyerasını bitirib.*

# İran Prezidenti Xəzərdəki Aşur adası ilə tanış olub

## İbrahim Rəisi bu adada turizm obyektlərinin tikintisi barədə göstəriş verib



**İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi Xəzər dənizində bu ölkəyə məxsus yeganə ada - Aşur adasında aparılan işlərlə tanış olub.**

Azərtac xəbər verir ki, Prezident İ. Rəisi İranda turizmin inkişafına xüsusi diqqət yetirdiyi üçün bu adada turizm obyektlərinin tikintisi barədə göstəriş verib.

Xəzər dənizinin İrana məxsus sektorundakı Mian qala yarımadasının yaxınlığında yerləşən Aşur adası zəngin təbiətə malikdir və xarici turistləri cəlb edən guşədir.

İran Prezidenti burada aparılan işlərin sürətləndirilməsi barədə göstəriş verib.





# "Burada qalıb döyüşəcəyik"

## Zirzəmidə nənəsiylə birlikdə "molotof" düzəldirlər



**Rusiya işğalına qarşı dirənişə qatlanlardan biri də İngiltərə vətəndaşı ilə ailə qurmuş Sabinadır. Sabina müharibə xəbərini duyar-duymaz Ukraynaya yol alıb.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Ukrayna Prezidenti V.Zelenskinin "hamını işğala qarşı birləşməyə çağırıram. Hər kəs gəlib rus ordusuna qarşı bizimlə yan-yana döyüşə bilər", müraciətindən sonra Sabina da bu ölkəyə axın edənlərdən biri olub. Sabinanın həyat yoldaşı Maykl Böyük Britaniya Kral Dəniz Donanmasında xidmət edib. İndi isə hər ikisi Ukraynanı müdafiə etmək üçün bu ölkəyə gəlib. Bombardmanlar başladıqda Maykl həyat yoldaşı və anası Oksana ilə nənəsi Larisanı Kiyevdən bir neçə kilometr məsafədə olan mənzillərinə aparıb. Qadınlar mənzilin zirzəmisində kustar üsulla "molotof kokteyli" düzəltməyə başlayıblar. Bu silahdan rus tanklarına qarşı istifadə edəcəklərini deyirlər. Maykl Sabina ilə Ukraynada snayperlik edərkən tanış olub. Ailə "molotof kokteyli"ni tanklara necə atmaq lazımdır, videolar vasitəsiylə öyrənir. Sabina nənəsinin mənzilində zirzəminin hərbi sığınacağa çevrildiyini deyir: "molotof kokteyl"i düzəldəcəyimi ağlıma da gətirməzdim. Amma buna məcburuq. Hər şeyə hazır olmalıyıq. Biz Ukraynanı tərk edə bilərdik. Ancaq getmədik. Burada qalıb döyüşəcəyik".

**Məlahət**

# Qaçqınlar üçün 3 milyon bağışladı

## Məşhur cütlük Ukraynaya dəstək verib



**Ukraynada anadan olan aktrisa Mila Kunis və həyat yoldaşı Eşton Katçer Rusiyanın hücumu səbəbindən ölkəni tərk etmək məcburiyyətində qalan qaçqınlara dəstək olmaq qərarı alıblar.**

**Axşam.az xəbər verir ki, Hollivud ulduzları ianə kampaniyası başladıb və özləri də 3 milyon dollar yardım ediblər. Ümumilikdə cütlük 30 milyon dollar toplamağı planlaşdırır.**

**Onlar bu barədə instaqram hesablarında məlumat yayıb. Mila çıxışı zamanı ukraynalı olması ilə həmişəkindən daha çox fəxr etdiyini vurğulayıb.**

**Qeyd edək ki, Ukraynaya dəstək olanlar arasında yer alan Bleyk Layvli, Rayan Reynolds, Nataliya Vodianova və Ancelina Coli ölkədəki münaqişə qurbanlarına kömək etməyə hazır olduqlarını bəyan ediblər. Eyni zamanda Rusiyalı milyarder Roman Abramoviç "Çelsi" futbol klubunu 4 milyard funt-sterlinqə (5,3 milyard dollar) sataraq əldə olunan gəliri Ukraynaya dəstək üçün xeyriyyə fonduna köçürəcək.**

# Rusiyalı milyarderin oğlu "Formula-1"dən qovuldu



**"Formula-1" yarışmasında çıxış edən rusiyalı Nikita Mazepini Petro Fittipaldi əvəz edəcək.**

**Lent.az xəbər verir ki, "Formula-1" Rusiyanın "Uralkali" şirkətinin prezidenti Dmitri Mazepinlə sponsorluq sazişini birtərəfli qaydada pozub.**

**Məlumata görə, oğul Mazepin də bu səbəbdən martın 10-da Bəhreyndə keçiriləcək yarışmaya qatıla bilməyəcək.**

# 175 min xərcə düşdü

## Selinin "Rolls Royce"unun şüşəsi sındı



**Türkiyəli müğənni Selin Ciğercinin lüks avtomobilinə ziyan dəyib.**

**Baku.ws xəbər verir ki, sənətçinin "Rolls Royce" markalı 13 milyon lirə (təxminən 1 milyon 562 min AZN) dəyərində olan maşınının ön şüşəsi sınıb.**

**Bu haqda açıqlama verən Ciğerci avtomobilinin şüşəsinin bilinməyən səbəbdən zədələndiyini deyib.**

**Selin dəyən ziyanı aradan qaldırmaq üçün 175 min lirə (21 min 35 AZN) pul xərcləyəcəyini bildirib.**

***Qeyd edək ki, sənətçi mütəmadi olaraq gəlirini bahalı avtomobillərə, lüks evlərə və qiymətli daş-qaşlara xərcləyir. Onun 13 milyon lirə dəyərindəki avtomobili xüsusi olaraq sifarişlə düzəldilib.***



# "Şəhərlər bombalanır, uşaqlar ölür"

## 25 yaşlı Oleksandra: "Ancaq Rusiyada yaşayan anam mənə inanmır"



**Ukraynalılar Rusiyada yaşayan valideynlərinin baş verənlərdən xəbərsiz olduqlarını və Ukraynada şəhərlərin bombalandığını, insanların sığınacaqlarda gizləndiyinə inanmadıqlarını "BBC News"a (Türkcə) anladıblar.**

Xarkov şəhəri bombardman edilməyə başladığı gündən 4 köpəklə mənzilin hamam otağında gizlənən 25 yaşlı Oleksandra deyib ki, Moskvada yaşayan anasıyla telefon əlaqəsi saxlayır. Şəhərin bombalanmasını videoya çəkib anasına göndərib. Amma anası hətta bu videolara da inanmır: "Valideynlərimi qorxutmaq istəmirdim. Ancaq onlara dinc əhalinin, uşaqların öldüyünü anlatmağa başladım. Mənim üçün narahat olduqlarını desələr də, rus ordusunu dinc əhalini hədəf alacağına əsla inanmadıqlarını, əksinə, Ukrayna ordusunun öz xalqını qətl etdiyini söyləməyə davam edirlər. Bundan dəhşətə gəlirəm. Buna səbəb Rusiya televiziyaları tərəfindən həqiqətin gizlədilməsidir. Anamın dedikləri rus mediasının dedikləridir". Oleksandra deyib ki, anasının rus spikeri kimi danışması qorxuncdur: "Rəsmi Moskva insanların beynini "yeyir". Valideynlərim belə zənn edir ki, burada hərbi əməliyyat icra olunur. Ruslar bizi "müstəqilləşdirmək" üçün gəlir. Heç bir şeyə zərər verməyəcəklər, bizə toxunmayacaqlar. Yalnız hərbi bazaları hədəf alırlar. Valideynlərimdən bunları eşitmək dəhşətdir". Rusiya telekanalları müharibəyə Ukraynanın təcavüzkar davranışlarının səbəb olduğunu deyir və baş verənləri "özgürlük əməliyyatı" adlandırırlar. Bəzi ruslar müharibəyə etiraz əlaməti olaraq küçələrə çıxsa da, telekanallar bunu efirə vermir.

Kiyevdə restoran işlədən Mikhailo da bombardman başladıqda ailəsini Macarıstan sərhədinə qədər müşayiət edib, özü isə Kiyevə dönüb. Atası Rusiyanın Nişni-Novqorod şəhərində yaşayır və monastırda işləyir. Mikhailo atasının bu vurhavura baxmayaraq heç zəng etməməsinə təəccüb edib və atasına telefon açıb. Atasıyla danışarkən onun baş verənlər barədə yanlış məlumatlara malik olduğunu başa düşüb: "Atam, mənə "xeyir, bu, müharibə deyil, ruslar Ukraynanı faşistlərdən qoruyur" dedi. Mən rus təbliğatına bundan öncə də bələd idim, amma bu qədərini təsəvvürümə gətirməmişdim. Doğma atam mənə inanmır. Halbuki, anam və nənəm də mənimlə birlikdə hamam otağında gizlənirlər". Mikhailo da məlumatsızlığın və yanlış məlumatlara sahib olmanın səbəbini Rusiya mediasının davamlı yalan informasiyalar üzərində çalışması ilə izah edib.

**Məlahət Rzayeva**

# Alimlər şansı göstərən əlamətləri tapıblar

## Kimdə bu 5 əlamət varsa, 100 yaşa çata bilər



**Çox insan uzun ömür yaşamaq istəyir. Amma etiraf edək ki, elə çoxumuz orqanizmimizin bu qədər ömrə uyğun olmadığını bilirik.**

Medicina.az xəbər verir ki, alimlər bir insanın 100 il yaşama şansını göstərən 5 əlaməti tapıblar. Əgər sizdə bunlar varsa, deməli, 100-ə çata bilərsiz.

**1. Normal çəki və piysiz qaraciyər**

Yaşlandıqca insana bir qədər yağ, piy lazım olur. Amma alimlər bədən çəkisi indeksi normaya yaxın və boyuna uyğun insanların 90 yaşa kimi çatmasını təsdiqləyib.

Eləcə də ürək və qaraciyərdə piy toplanması ürək xəstəliklərini artırır. Ona görə daxili orqanların piylənməsinə yol vermək olmaz və mütəmadi yoxlanmalıdır.

**2. Sürətli gəzmək**

Tez-tez, sürətli və çox gəzənlər daha çox yaşayacaq, nəinki evdə, işdə əyləşənlər. Eləcə maşın sükanı arxasında çox olanlarda erkən ürək əlamətləri görülür.

**3. Meyvə, səbzə, tərəvəz çox yemək**

Hətta ət yeməyinin yanında da göyərti, salat, tərəvəz yeyənlər daha sağlam və uzunömürlü olur.

**4. Zəhmətkeşlik, fiziki əmək**

İnsanın ömrü onun nə qədər məşğul olmasından asılıdır. Sutkanın böyük hissəsini hansısa işlə məşğul olan, vaxtı olmayan, məqsədyönlü, aktiv, işsiz dayana bilməyənlərin daha çox yaşaması və keçən illərin fərqində olmadığı sübut olunub. Ətalət halında insan daha çox özünə qapılır, evdən çıxmağa ərinir və məqsədsiz yaşadığı üçün həyat ona mənasız gəlir.

**5. Yaxşı yuxu və xoş əhval**

Sadə bir hadisəyə sevinən, xırda detallardan xoşbəxt olan, dostluğa meyilli, eləcə də sutkalıq gecə yuxusu 7 saat olan insanlar da 100-ə çata bilər. Ümumiyyətlə, yaşlı vaxtı 30 dəqiqəlik gündüz yuxusu da vacibdir. Bu zaman beyin neyronları təmizlənir, aktivləşir və lazımi hormonlar sintez olunur.

# 14 il sonra yenidən tərəf müqabili olacaqlar

## Kıvanç Tatlıtuğ və Beren Saat yenidən eyni layihədə yer alacaq



**Sonuncu dəfə 14 il əvvəl "Aşk-ı Memnu" serialında tərəf müqabili olan aktyorlar Kıvanç Tatlıtuğ və Beren Saat yenidən eyni layihədə yer alacaq.**

Axşam.az xəbər verir ki, ikilinin rol alacağı filmin adı hələlik açıqlanmayıb. Layihə "OGM Pictures" tərəfindən ekranlaşdırılacaq. Şirkət artıq Kıvanç və Berenlə müqavilə bağlayıb.

"Netflix"də yayımlanacaq filmin ssenarisi Nuran Evren Şit tərəfindən yazılacaq. Çəkilişlər Nyu-Yorkda baş tutacaq.

Məşhur aktyorların ekran işində hansı obrazı canlandıracaqları da hələlik bəlli deyil.